# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 15 (3431) Cümə axşamı / 21-27 aprel 2022-ci il Qiymәti 40 qәpik


# Dünyaya Şuşadan səslənəcəyik

***“Bütün Qurultaylarda həmişə növbəti qurultayın Şuşada keçirilməsini arzu edirdik”. Bunu jurnalistlərə açıqlamasında Diasporla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Valeh Hacıyev bildirib. Valeh Hacıyev deyib ki, Dünya Azərbaycanlılarının V Qurultayı 22-23 apreldə Şuşada keçiriləcək: “Bu, Zəfərdən sonra keçirilən Dünya Azərbaycanlılarının ilk Qurultayıdır. Şuşada keçiriləcək Qurultay Zəfər Qurultayı olacaq. Azərbaycanın, Türk Dünyasının mədəniyyət paytaxtında keçiriləcək Qurultayda bundan sonra diasporun fəaliyyətini müəyyənləşdirəcək mühüm qərarlar qəbul ediləcək”. Artıq dünya azərbaycanlılarının Şuşa Qurultayına sayılı günlər qalır. Hafta.az Azərbaycanın ictimai-siyasi kəsimi ilə qurultayın əhəmiyyəti və məkan olaraq Şuşanın seçilməsinin əhəmiyyəti barədə müzakirə aparıb.***




**Tənzilə Rüstəmxanlı, Azəri-Türk Qadınları İctimai Birliyinin sədri:**



- Dünya azərbaycanlılarının təşkilatlanması, diaspor quruculuğunda ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir. Yaxşı xatırlayıram, Dünya Azərbaycanlılarının ilk Qurultayı 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmişdi. Biz hamımız o qurultayda iştirak etmişdik.Ulu Öndərin nitqi, bu sahədə qəbul olunmuş qərarlar, qarşıya qoyulan vəzifələr bugünümüz üçün çox önəm daşıyırdı və biz bu həmrəyliyin nəticəsini 44 günlük Vətən savaşında gördük. O vaxt Azərbaycanın Qarabağ məsələsini soydaşlarımızın yaşadıqları ölkələrdə qaldırması, Azərbaycan üçün diaspor fəaliyyəti göstərmək çox çətin idi. Heydər Əliyev diaspor fəaliyyətinin əhəmiyyətini çox gözəl bildiyi üçün ona çox böyük önəm verirdi. Onun hər qurultayda diasporaların 5 illik proqramını əks etdirən çıxışları olurdu. Ondan sonra cənab Prezident İlham Əliyev bu işi uğurla davam etdirir. Əgər Avropada, Amerikada, demək olar ki, dünyanın hər yerində bu diaspor fəaliyyətləri olmasaydı, bu gün istənilən nəticəni almazdıq. Türk diaspor təşkilatları, yəhudi diaspor təşkilatları ilə birgə əməkdaşlığın nəticəsi idi ki, 44 günlük müharibədə Qarabağın azad olunması prosesində dünya ictimaiyyətinin rəyi Azərbaycanın əleyhinə deyildi. Bu günlərdə Şuşada Dünya Azərbaycanlılarının növbəti Qurultayı keçiriləcək. Bu da haqq səsimizin dünyaya ötürülməsi üçün çox önəmlidir. Bu il Şuşa ilidir. Türksoy 2023-cü ili Şuşa İli elan edib. Şuşa belə böyük beynəlxalq ədəbi, mədəni tədbirlərə artıq azad olunduğu gündən bu yana ev sahibliyi edir və Şuşanın Azərbaycan üçün önəmini ortaya qoyur. Belə tədbirlərin olması Şuşanı Azərbaycanın və Türk dünyasının deyil, eləcə də bölgəmizin də böyük mədəniyyət mərkəzinə çevrəcək.

**Fəridə Pənahova, Britaniya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri:**



- Dünya Azərbaycanlılarının V Qurultayı Azərbaycanın tarixində önəmli hadisələrdən biri kimi yaddaşlarda qalacaq. Bu həftə ölkəmizin tarixində əlamətdar bir həftə olacaq. Dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının rəhbərləri, nümayəndələri Şuşa şəhərində Zəfər qurultayına toplaşacaqlar. Diaspor nümayəndələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycanın mədəniyyət paytaxtı doğma Şuşamızın görüşünə gedəcəklər. Zəfər qurultayı son illər, xüsusilə də müharibə dövründə yüksək təşkilatlanma, birlik nümayiş etdirən, Azərbaycan həqiqətləri haqqında davamlı maarifləndirmə işi aparan, Azərbaycanın haqq səsini daha yüksək instansiyalara çatdıran diasporumuzun ilk böyük görüşü olacaq. Qurultay dünya azərbaycanlılarının daha fəal və məqsədyönlü fəaliyyəti, sıx birləşmələri üçün həvəsləndirici bir tədbir kimi də mühümdür. Qurultayın məhz Şuşada keçirilməsi belə bir mesaj verir - bu müqəddəs torpağın sahibləri yenidən öz yurdlarına, el-obalarına döndülər. Torpaqlarımız düşmən tapdağından xilas oldu. Ədalət zəfər çaldı. Qurultay xaricdə yaşayan azərbaycanlıların ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, diaspor hərəkatının tarixində təşkilatlanmanın əsaslarını möhkəmləndirməklə yanaşı, bu hərəkatı növbəti, daha fərqli və yüksək mərhələyə keçirməyə xidmət edəcək. Zəfər Qurultayının məhz Şuşada keçirilməsi Vətənimizin öz övladlarına verdiyi dəyərin bariz nümunəsidir.

**Aydın Quliyev, siyasi şərhçi**



- Dünya Azərbaycanlılarının 5-ci Qurultayının Şuşada keçirilməsi barədə qərarın özü tarixi əhəmiyyətə malikdir. İndiyə qədər keçirilmiş 4 qurultaydan sonra 5-ci Şuşa Qurultayı kimlərəsə formal görünsə də, tarixdə bunun ayrıca bir yeri olacaq. İndiyə kimi Dünya Azərbaycanlılarının Qurultayları Azərbaycanın paytaxtında keçirildiyi halda, 30 ildən sonra ilk dəfə işğaldan azad olunmuş torpaqlarımızın gözündə - Şuşada keçirilməsi təsadüfi ola bilməz. Bu qurultay, yəqin ki, dünya azərbaycanlılarının taleyində və həyatında xüsusi bir hadisə kimi yadda qalacaq. Şuşa Qurultayının dünyaya çox böyük mesajları olacaq. Bu qurultay torpaqlarımızın işğaldan azad edilməsinin təkcə Azərbaycan dövlətinin və onun ölkədə yaşayan vətəndaşlarının yox, həm də dünyada yaşayan Azərbaycan diaspora üzvlərinin taleyi üçün önəmli hadisəyə çevrildiyini göstərəcək. Dünya görəcək ki, Şuşanın azadlığı üçün təkcə Azərbaycanda olan vətəndaşlar, Azərbaycan Ordusu, dövlət orqanları, vətəndaşlar yox, eyni zamanda xaricdə yaşayan diaspor üzvlərimizin də aktiv fəaliyəti olub. Bu eyni zamanda onların böyük həyat arzularına çevrilib. Bu qurultayda veriləcək mesajların dünyada Azərbaycanı istəməyən, 44 günlük müharibənin nəticələri ilə barışmayan düşmən qüvvələrə də çox böyük təsir gücü olacaq.

> *“Heydər Əliyev diaspor fəaliyyətinə böyük önəm verirdi*

> *“Zəfər Qurultayının məhz Şuşada keçirilməsi Vətənimizin öz övladlarına verdiyi dəyərin bariz nümunəsidir*

> *“Şuşa Qurultayının dünyaya çox böyük mesajları olacaq*

> *“Şuşa dünya azərbaycanlılarını Vətən naminə birləşdirəcək*

**Vüqar Dadaşov, hüquqşünas:**



- Dünya Azərbaycanlıları Qurultayının türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada keçirilməsinin həm simvolik, həm də siyasi hədəfləri var. Qurultay dünya azərbaycanlılarının, diaspor təşkilatlarının Şuşa mənəviyyatının ətrafında sıx birləşməsinə müsbət təsir edəcək. Şuşanın əzəməti diaspor təşkilatlarının Vətən sevgisini daha da alovlandıracaq. Diaspor təşkilatları faktiki olaraq dövlət və xalq maraqlarını təmsil və təmin edən ən effektli vasitədir. Hətta deyərdim ki, dövlət büdcəsindən maliyyələşən səfirlik, konsulluqlardan da daha səmərəli fəaliyyət göstərə bilər. Ukrayna müharibəsində başsız qalan azərbaycanlıların taleyini səfirlik, konsulluq yox, diaspor təşkilatları nümunəvi şəkildə həyata keçirtdi. Diaspor təşkilatları var ki, dünya düzəninə təsiretmə imkanına malikdir. Yəhudi, Çin, yunan diasporları öz dövlət, xalq maraqlarını dövlətlərinin xarici işlər nazirliklərindən, səfirliklərindən, konsulluqlarından da çox yüksək səviyyədə qoruyurlar və hətta yerli hakimiyyət diaspor təşkilatları ilə fəaliyyətini koordinasiya edirlər. Şuşa növbəti dəfə dünya azərbaycanlılarını Vətən naminə birləşdirəcək.

✍ **Tahirə**

MÜSAHİB

# “Sülh müharibəsi” dövrü...



**Zahid Oruc,**
Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili

***Dünyada gərginliyi ilə müşahidə olunan proseslərin fonunda region və işğaldan azad olunmuş ərazilərimizdə gedən diplomatik müzakirələr, eləcə də işğalçı-məğlub Ermənistanın sərsəm iddiaları davam edir. Müharibədən yeni çıxan ölkəmizin üzləşdiyi maddi-mənəvi zərərin miqyası və bərpa prosesinin gedişində, ölkəmizin dəyişən dünya düzəninin mövcud reallığı ilə nə dərəcədə uzlaşa bilməsi, diplomatik cəbhədəki real vəziyyətdən hansı baza ilə çıxacağımız gündəmin əsas müzakirə mövzusu olaraq çözülməkdədir.***

*Bu gün Azərbaycanın taleyi beynəlxalq titullu şəxslərdən deyil, rəsmi Bakının addımlarından asılıdır*

▸▸ Səh. 3

MÜSAHİB



**Ərəstun Oruclu,**
“Şərq-Qərb” araşdırmalar mərkəzinin rəhbəri, siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

- ■ Baş verənlərin arxasınca getmək öncədən məğlubiyyətə imza atmaqdır
- ■ İstər İrəvana, istərsə də Xankəndinə bütün komandalar Moskvadan gəlir
- ■ Biz Ermənistan və ya Qarabağ siyasətimizi Rusiyanın bu və ya digər vəziyyətdə Ukraynadakı müharibədən necə çıxacağı üzərində qurmalıyıq

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



Şarl Mişel Kiyevdə Zelenski ilə görüşüb

GÜNÜN SİTATI

*“Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdıq”*



**Sadır Japarov,**
Qırğız Respublikasının Prezidenti

KARİKATURA



Müharibədə hamı kasıbdı

# Kiyev tədricən öz həyatına qayıdır...

**Elxan Nuriyev,**
UZB-nin mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik

Paytaxtda hər kəsin eyvanında hazır “Molotov kokteyl”-ləri var...

▸▸ Səh. 5

STATİSTİKA



**■ 2022-ci ilin ötən 3 ayı ərzində respublika ərazisində ölüm və xəsarətlə nəticələnən 403 yol-nəqliyyat hadisəsi qeydə alınıb.**

Bu hadisələr zamanı 183 nəfər həlak olub, 373 nəfər isə xəsarət alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hadisələrin sayı 27, ölənlərin sayı 58, yaralananların sayı isə 3 nəfər artıb.



▸▸ Səh. 6

# Qadın məhkumlarla bir gün

PREZİDENTİN İŞ GÜNÜ

# Kino Agentliyi yaradılıb



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında" Fərman imzalayıb.**

Fərmana əsasən, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs yaradılıb.

Müəyyən edilib ki, Agentlik Azərbaycan Respublikasında kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin, eləcə də kinematoqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyası sahələrində fəaliyyət göstərən, Nazirliyin tabeliyindəki kinematoqrafiya müəssisələrini idarə edən və onların fəaliyyətinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun iki müavini daxil olmaqla 3 üzvdən ibarət Müşahidə Şurası yaradılır.

Agentliyin fəaliyyətinə cari rəhbərliyi Baş direktor həyata keçirir. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilib:

Azərbaycan Respublikasının Prezidentinə:

- Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;
- Agentliyin idarəetmə orqanlarının yaradılması;
- Agentliyin yenidən təşkili və ləğvi;

Nazirliyə:

- bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

Agentliyin saxlanılması və fəaliyyətinin təmin edilməsi dövlət büdcəsinin vəsaiti və qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

Nazirlər Kabineti iki ay müddətində Agentliyin nizamnaməsinin layihəsini və nizamnamə fondunun miqdarı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, Agentliyin fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər görməli və bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Nazirlik Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görməli və bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

# Əhməd Cavadın 130 illiyi qeyd ediləcək

**Prezident İlham Əliyev Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, 2022-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın (Cavad Məhəmmədəli oğlu Axundzadənin) anadan olmasının 130 illiyi tamam olur.

"Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilmişdir", - Sərəncamda bildirilib.

Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli şair Əhməd Cavadın 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Prezident qırğız həmkarına təşəkkür etdi

***Aprelin 20-də Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin öncə təkbətək, daha sonra geniştərkibli görüşü olub. Daha sonra Prezidentlər mətbuata birgə bəyanatla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Qırğızıstan Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində biz ikitərəfli qarşılıqlı fəaliyyətin geniş spektrini gözdən keçirdik, əməkdaşlığımızın gündəliyindəki məsələlərə ətraflı nəzər saldıq:***



## Səfər

"Həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə münasibətlərimizi intensivləşdirmək əzmində olduğumuzu bildirdik. Biz dost və qardaş dövlətlərik. Bu gün bizim münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə çatıb. On sənəd imzalanıb, mən onların arasında ikisini - Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumu xüsusi vurğulamaq istərdim. Hər iki sənəd bizim münasibətlərin xarakterini və formasını əsasən qabaqcadan müəyyən edəcək. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Biz Dövlətlərarası Şura çərçivəsində həm ikitərəfli gündəliyə aid məsələləri, həm də regional və beynəlxalq problemləri daha effektli və fəal surətdə müntəzəm müzakirə edəcəyik. Beynəlxalq sahəyə gəlincə, deməliyəm ki, Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ənənəvi olaraq həmişə bir-birini dəstəkləyir. Biz Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyi müddətinin uzadılmasında Qırğızıstanın dəstəyinə görə minnətdarıq. Biz BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ECO çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik.

Ticari-iqtisadi sahəyə gəlincə, bu gün bu məsələyə xüsusi diqqət yetirildi. Çünki əlbəttə, Prezidentlə fikir mübadiləsi apardıq ki, əmtəə dövriyyəsinin mövcud səviyyəsi bizi qane edə bilməz. Fikrimcə, nümayəndə heyətlərinin üzvlərinə verilən tapşırıqlar qarşılıqlı ticarətin həcmini qısa müddət ərzində artırmağa imkan verəcək.

Bu gün nəqliyyat infrastrukturu ilə və Şərq-Qərb nəqliyyat dəhlizinin daha səmərəli fəaliyyət göstərməsi üçün səylərimizi necə birləşdirməklə bağlı məsələlər ətraflı müzakirə olundu. Azərbaycanda yüklərin bütün istiqamətlərə - həm Şimala, həm Cənuba, həm də Qərbə göndərilməsinə imkan verən müasir nəqliyyat infrastrukturu yaradılıb. Əlbəttə, bu imkanlar, bizim liman infrastrukturunun imkanları qırğız qardaşlarımızın sərəncamındadır.

Bu gün biz Qırğızıstanın investisiya imkanları barədə də ətraflı danışdıq. Bildiyimiz kimi, Qırğızıstan Prezidenti enerji infrastrukturu məsələləri ilə çox fəal məşğul olur. Fikrimcə, Qırğızıstan iqtisadiyyatının bu sektoru Azərbaycan şirkətlərinə maraqlı olardı. Bizim şirkətlərimizin müasir enerji müəssisələrinin, elektrik stansiyalarının, o cümlədən istilik elektrik stansiyalarının yaradılmasında müəyyən təcrübəsi var. Fikrimcə, burada səylərin birləşdirilməsinə və Azərbaycanın investisiya potensialına çox ehtiyac olardı. Mən əminəm ki, bu və digər məsələlər bu gün cənab Prezidentin Azərbaycanın aparıcı şirkətləri ilə görüşü zamanı daha ətraflı müzakirə ediləcək. Dediyim kimi, Azərbaycan şirkətlərinin bu görüşə çox böyük marağı var. Bu, məhz onunla bağlıdır ki, Qırğızıstan Prezidentinin rəhbərliyi ilə həm xarici investisiyaların cəlb edilməsi, həm də əlverişli investisiya şəraitinin yaradılması üçün çox mükəmməl investisiya siyasəti həyata keçirilir. Bu, əlbəttə ki, Qırğızıstan Prezidentinin nəzərdə tutduğu bütün planların qısa müddət ərzində yerinə yetirilməsinə imkan verəcək.

### Biz Azərbaycanın qədim Şuşa şəhərinin gələn il türk dünyasının mədəniyyət paytaxtı elan olunması təşəbbüsünü dəstəklədiyinə görə Qırğızıstana təşəkkür edirik

Biz, əlbəttə, ticari-iqtisadi münasibətlər məsələləri ilə yanaşı, kənd təsərrüfatı ilə bağlı məsələləri də müzakirə etdik. Burada müvafiq nazirlərə konkret tapşırıqlar verdik. Fikrimcə, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti prezidentlərin tapşırıqlarının əməli surətdə yerinə yetirilməsi məqsədilə yerində iş aparmaq üçün yaxın vaxtlarda Qırğızıstana səfər edəcək. Əlbəttə, bizi birləşdirən humanitar sahə, bizim mədəni irsimiz, bizim ortaq tarixi, mənəvi köklərimizdir. Bütün bunlar bizim dövlətlərarası münasibətlərdə həmişə mövcud olmuş və olacaq amildir. Biz Azərbaycanın qədim Şuşa şəhərinin gələn il türk dünyasının mədəniyyət paytaxtı elan olunması təşəbbüsünü dəstəklədiyinə görə Qırğızıstana təşəkkür edirik. Biz bütün türk dövlətlərinin, o cümlədən Qırğızıstanın bu qərarını çox yüksək dəyərləndiririk. Şuşa şəhərinin bərpası üzrə planlarımız fəal icra olunur və icra olunacaq. Bu səbəbdən türk dünyasının mədəniyyət paytaxtı adını daşımaq kimi yüksək şərəf bizim üzərimizə qədim, gözəl şəhərimizi daha fəal bərpa etmək öhdəliyi qoyur. Başqa sözlə desək, bu gün müzakirə etdiyimiz bütün məsələlərə dair, - nümayəndə heyətinin üzvləri hələ dünən ünsiyyətdə olublar, - aramızda tam qarşılıqlı anlaşma var və biz imzalanmış sənədlərdə bunu təsbit etmişik. Təbii ki, bir daha qeyd etmək istəyirəm, bu sənədlər arasında ən əsası Strateji Tərəfdaşlıq haqqında Bəyannamədir. Biz bundan sonra da bütün məsələlərdə bir-birimizi dəstəkləyəcək, əməkdaşlıq edəcək və müvafiq strukturlarımızın fəaliyyətində konkret nəticələrə nail olacağıq". Sonra çıxış edən Qırğızıstan Prezidenti Sadır Japarov deyib ki, çox rəmzi haldır ki, mənim Azərbaycan Respublikasına ilk rəsmi səfərim qardaş ölkələrimiz arasında Dostluq və Əməkdaşlıq Haqqında Müqavilənin 25 illiyi və diplomatik münasibətlər qurulmasının 30-cu ildönümü ərəfəsində keçir:

"Biz indicə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərinə dair məzmunlu danışıqlar apardıq, beynəlxalq və regional mövzulara dair fikir mübadiləsi etdik. Danışıqlar dövlətlərimiz arasında qardaşlıq münasibətlərini səciyyələndirən tam qarşılıqlı anlaşma, səmimiyyət və etimad şəraitində keçdi. Biz dostluq əlaqələrinin fəallaşması və genişlənməsi kursunun dəyişməzliyini təsdiq etdik. Bu gün biz Qırğızıstan ilə Azərbaycan arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdıq. İndicə müvafiq Bəyannaməni imzaladıq. Bu, tarixi xarakterli mühüm sənəddir və tamamilə aşkardır ki, bizim münasibətlərimizin inkişafında yeni mərhələyə hər iki tərəfin səyləri sayəsində çatmışıq. Bizim hədəfimiz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə, siyasi dialoqun möhkəmlənməsi, daha sıx iqtisadi əlaqələr yaradılması və inkişaf etdirilməsi, iri investisiya layihələrinin birgə həyata keçirilməsi, habelə humanitar əməkdaşlığın daha da genişləndirilməsidir. Əlbəttə, bu, etibarlı təməl, xalqlarımız arasında dərin tarixi və mənəvi əlaqələr olmadan mümkün olmazdı. Bu gün biz Dövlətlərarası Şuranı da təsis etdik. Onun iclaslarında ölkələrimiz arasında münasibətlərin inkişafının ən mühüm məsələlərinə baxılacaq. Bütövlükdə cəmi on mühüm sənəd və saziş, o cümlədən kənd təsərrüfatı, informasiya texnologiyaları, aviasiya nəqliyyatı, antiinhisar nizamlama və intellektual mülkiyyətin qorunması kimi sahələrdə əməkdaşlıq haqqında sənədlər imzalanıb. Ticari-iqtisadi sahədə praktiki əməkdaşlıq üçün geniş imkanlarımız var. Bu gün biz öz iqtisadiyyatımızın liberallaşdırılmasına yönəlmiş addımlar atırıq. İnvestisiya qanunvericiliyi təkmilləşdirilir, bununla əlaqədar Qırğız Respublikasının bir çox ölkələrlə investisiya əməkdaşlığı fəallaşır. Ona görə də biz Azərbaycanın biznes dairələrini ölkəmizdə investisiya imkanlarını fəal öyrənməyə dəvət edirik.

Bunu qeyd etməyə şadam ki, xalqlarımız fəal mədəni-humanitar əməkdaşlıq vasitəsilə qarşılıqlı surətdə zənginləşir. Mədəniyyət xadimləri müntəzəm mübadilələr edir, xalqlarımız arasında əsl dostluq körpülərinin möhkəmlənməsinə şərait yaradırlar. Biz Azərbaycan ilə həm ikitərəfli əlaqələrin möhkəmlənməsində, həm də çoxtərəfli əməkdaşlığın genişlənməsində maraqlıyıq. Məlum olduğu kimi, ölkələrimiz BMT, Türk Dövlətləri Təşkilatı, MDB, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində sıx qarşılıqlı əlaqə saxlayır. Qırğızıstan öz tərəfindən Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun müşahidəçi səviyyəsinə qədər artırılmasını hərtərəfli dəstəkləyir.

Hörmətli xanımlar və cənablar, bu gün dünyada baş verən dərin dəyişikliklər bizə yeni tipli münasibətlər qurmaq, onları daha humanist etmək, ləyaqət və şərəf kimi əzəli türk dəyərlərini əsas götürmək üçün tarixi şans verir. Türk məkanında bu yeni münasibətlər yeni dövrün dövlətlərarası qarşılıqlı münasibətlərinin nümunəsi olmalıdır. Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin bizim baxışlarımıza şərik olmasını və onları tamamilə dəstəkləməsini dərk etmək mənə böyük məmnunluq verir. Mürəkkəb dövrlərdə güclü liderlər tələb olunur. Öz ölkəsini daha güclü, dünyanı isə daha yaxşı etmək üçün məsuliyyət onların üzərinə düşür. Buna görə də fürsətdən istifadə edib Prezident Əliyevə səmimi qəlbdən hər bir işində uğurlar, Azərbaycan xalqının rifahı və ümumbəşəri dəyərlər naminə ali məqsədlərə çatmaq üçün tükənməz enerji arzu etmək istərdim. Biz bu dəyərlər əsasında azərbaycanlı qardaşlarımızla səmərəli işə hazırıq və inanırıq ki, birlikdə bütün çətinlikləri aradan qaldıracaq, daha yaxşı dünya qurulmasına öz töhfəmizi verəcəyik. Bunun üçün bizim hər cür şəraitimiz var".



### Danışıqlar dövlətlərimiz arasında qardaşlıq münasibətlərini səciyyələndirən tam qarşılıqlı anlaşma, səmimiyyət və etimad şəraitində keçdi



**■ 20 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Çin Xalq Respublikasının xarici işlər naziri Van İ arasında telefon danışığı baş tutub. Nazirlər iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafı üzrə fikir mübadiləsi aparıblar.**

Azərbaycan və Çin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə qarşılılıq təbriklər ifadə edilib. Nazir Ceyhun Bayramov Çin Xalq Respublikasının Qış Olimpiya Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi münasibətilə həmkarını təbrik edib. Nazir, ikitərəfli gündəliyin siyasi, iqtisadi, humanitar istiqamətlərdə uğurla inkişafını vurğulayıb və əlaqələrin daha da irəliləməsi üçün potensialın olduğunu bildirib.



**■ Borodyankada gördüklərimi sözlə ifadə etmək çətindir". Bunu Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Ukrayna Prezidenti Vladimir Zelenski ilə birgə Kiyevdə keçirdiyi brifinqdə deyib.**

Rusiyaya qarşı sanksiyalara gəlincə, Şarl Mişel bildirib ki, indiyə qədər individual şəxslər və hüquqi şəxslərə qarşı sərt sanksiyalar tətbiq olunub və bu davam edəcək. Aİ lideri deyib ki, Rusiyanın enerji resurslarına qarşı embarqo müzakirə olunur və bu məsələ Avropa Parlamentində də müzakirə olunub. "Biz tez və ya gec Rusiyanın enerji resurslarından imtina edəcəyik və bunun tez baş verməsi üçün tərəfdaşlarımızla işləyirik", deyə Şarl Mişel vurğulayıb.



**■ 20 aprel 2022-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin inzibati binasında fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə iclas keçirilib. Nazirliyin səlahiyyətlərinə aid təhlükəsizliyə nəzarət məsələlərinin müzakirəsinə həsr olunmuş iclasda FHN-in müvafiq struktur bölmələrinin rəhbərləri iştirak edib.**

Kəmaləddin Heydərov FHN-in fəaliyyət istiqamətlərinə uyğun olaraq əhali və ərazilərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyətindən, xüsusilə ticarət, xidmət, istehsal sahələrində aidiyyəti üzrə təhlükəsizliyə nəzarətin təmin edilməsi məsələlərindən danışıb. Bu məqsədlə aidiyyəti dövlət qurumları ilə qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulayan nazir həlli vacib məsələləri qeyd edib.



**■ Ermənistan qocalan ölkələr sırasına daxildir. Bunu BMT-nin Əhali Fondunun demoqrafiya proqramının rəhbəri Anna Ovannisyan deyib.**

"BMT şkalasına uyğun olaraq, ölkədə qoca insanların payı ümumi əhalinin 7 faizindən çoxdursa, ölkə qocalan hesab olunur. Ermənistanda bu göstərici, təxminən 14 faizə bərabərdir. Bu isə o deməkdir ki, Ermənistan qocalan ölkələr sırasına daxildir", - deyə o bildirib. A.Ovannisyan qeyd edib ki, bu hal doğum indeksinin az olduğu və azalmağa doğru getdiyi ölkələrdə müşahidə olunur. BMT-nin Əhali Fondunun proqnozlarına əsasən, 2050-ci ilədək qocalar dünya əhalsinin 22-24 faizini təşkil edəcək.

# “Sülh müharibəsi” dövrü...



**Zahid Oruc,**
Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili

**Dünyada gərginliyi ilə müşahidə olunan proseslərin fonunda region və işğaldan azad olunmuş ərazilərimizdə gedən diplomatik müzakirələr, eləcə də işğalçı-məğlub Ermənistanın sərsəm iddiaları davam edir. Müharibədən yeni çıxan ölkəmizin üzləşdiyi maddi-mənəvi zərərin miqyası və bərpa prosesinin gedişində, ölkəmizin dəyişən dünya düzəninin mövcud reallığı ilə nə dərəcədə uzlaşa bilməsi, diplomatik cəbhədəki real vəziyyətdən hansı baza ilə çıxacağımız gündəmin əsas müzakirə mövzusu olaraq çözülməkdədir. Ölkəmizin ətrafında hansı oyunlar gedir və biz nəyə diqqət etməliyik? Millət vəkili, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc “Həftə içi”nə müsahibəsində bir sıra maraqlı nüanslara diqqət çəkib:**

## Aktual

### Brüssel görüşü

***- Zahid müəllim, “ikitərəfli format”da Ermənistanla aparılan danışıqlara diqqət çəksək, Azərbaycanın öz ərazilərində suverenliyinin təminatı, qarşı tərəfin sülh müqaviləsinin imzalanmasına cəlb edilməsi yönündə hansı mərhələni keçdiyini söyləmək olar? Bu müstəvidə Brüssel görüşü nə vəd edir və Azərbaycan üçün hansı imkanlar yaranıb?***

- Vətən Müharibəsində qələbədən sonra Prezident İlham Əliyevin apardığı əsas dövlət kursu məhz hərbi meydanda qazanılmış uğuru siyasi-diplomatik müstəvidə rəsmiləşdirməkdir. Tarixən belə bir təcrübə formalaşıb ki, hər zaman silahlı toqquşmaların, hərbi davaların yekunu mütləq hüquqi aktlarla müşayiət olunur. Əks halda, qələbə yarımçıq sayılır. Ona görə də ötən 1 il yarımdan artıq dövrü "sülh müharibəsi" adlandıra bilərik. Faktiki olaraq Azərbaycanın siyasi məntiqi, əsas arqumentləri, prinsipləri və tezisləri danışıqlarda hökmranlıq qazanmışdı. Yalnız son ayda biz onların 5 prinsip kimi ictimailəşdiyini gördük. Şübhəsiz, biz savaşı tək ona görə aparmamışdıq ki, ermənilərin işğalına və təcavüzünə son qoyaq. Bu, əlbəttə ki, ali niyyətlərimizdən biri idi. Ən önəmli məsələ tarixi erməni iddialarını məhv etmək, onların bir daha cücərməsinə yol verməmək və gələcək nəsillər üçün hər hansı mənfi miras saxlamamaqdır. Bu sözlər Ali Baş Komandan İlham Əliyevə aiddir.

Zənn edirəm, hazırda Ermənistanda Paşinyan hakimiyyətinin ölkəmizin elan etdiyi mövqelərə müsbət reaksiya verməsi, bunu Brüssel görüşlərində dilə gətirməsi, bir daha təsdiqləməsi analogiyası olmayan bir hadisədir. Son günlər görürük ki, Ermənistanda keçmiş hərbi-siyasi qüvvələr indi İsaq Rabinin taleyini Paşinyana yaşatmaq üçün atəş açmağa qədər gedib-çıxa biləcəklərini və revanşist qüvvələr daxildə müxtəlif addımlar atacaqlarını və Azərbaycanla sülh müqaviləsinin bağlanmasını onlar üçün öldürücü mahiyyət daşıyacağını elan etməyə başlayıblar. Dərhal onların arqumentinin qarşısına mühüm bir məsələ çıxır: hansı bir qeyri-adi beynəlxalq, regional şərait formalaşacaq ki, onlar keçmişdə 20 faizi rəsmiləşdirə bilmədikləri halda, indiki məğlubiyyət durumundan çıxıb, ordu formalaşdırıb hərbi əməliyyatla o əraziləri qaytarıb onun üzərində təzədən 2-ci dövlət quralar. Tarixi proses də gəlib ona dayandı ki, sülh müqaviləsi regionda Ermənistanın varlığını təsdiq etmək anlamında qəbul oluna biər. Bu onlar üçün mühüm bir nəticədir. Yəni böyük deyil, kiçik Ermənistan bu müharibənin yekunlarından biridir. O, mütləq olaraq coğrafi, siyasi, hərbi, iqtisadi təhlükələrə yol açır.

Ona görə də gərək öz coğrafiyana, biçiminə, miqyasına uyğun iddialarda olasan. Hesab edirəm, Brüssel görüşü bu baxımdan çox əlamətdar oldu. O anlamda ki, bunu bir sıra hallarda çoxları 10 Noyabr və 11 Yanvar Moskva görüşlərinə, oradakı razılaşmalara qarşı qəbul edir. Bundan ötrü müəyyən açıqlamalarda müəyyən elementlər olsa da, mahiyyət etibarilə Qərb regionda ilk dəfədir ki, Avropa Birliyinin timsalında iki millət arasında münasibətlərin sülhlə yekunlaşmasında maraqlı olduqlarını göstərmək istəyir. Şübhəsiz ki, bu təqdir olunası məsələdir, həm də on görə ki, Avropa Birliyi tərəflərə yalnız siyasi bəyanatlar, konsultasiyalar, hansısa başqa xarakterli nəzəri mahiyyətli yardımlarını təklif eləmir. Eyni zamanda, bölgəyə Ermənistanın timsalında 2,6 milyard avro, bizim ölkəyə isə əvvəl 150 milyon elan olunduğu halda cənab prezidentin sərt etirazları fonunda 2 milyard avroya qədər vəsait verəcəyini rəsmiləşdirib. Bu, öz-özlüyündə iki dövlət arasındakı sülhə Avropa Birliyinin də investisiya yatırmağa hazırlığını göstərir.

Ümumən, cənab Prezident Cənubi Qafqazda yalnız iki dövlət arasında deyil, Türkiyə-Ermənistan, bəlkə də Gürcüstan və bölgə, İranın da region və qlobal dünya ilə münasibətlərinə təsir edəcək və tarixdə nə “Gülüstan-Türkmənçay”la, nə 2020-ci ilin Moskva müqaviləsi ilə müqayisə olunmayacaq dərəcədə Azərbaycan qələbəsini özündə ehtiva edən, lakin regionda birgə yaşayışı, təhlükəsizliyi təsbit edən bir müqaviləyə son dərəcədə yaxındır.

### Paşinyanın mövqeyi

***- Məlumdur ki, Ermənistan Azərbaycanın ona təklif etdiyi 5 baza prinsipinə qarşı öz şərtlərini də irəli sürür. Ermənistanda, hətta Qarabağda qalan erməni separatçıları sülh müqaviləsinə qarşı etiraz edərək, “Dağlıq Qarabağ statusu”, danışıqların Minsk qrupu çərçivəsində aparılması”, “Azərbaycan öz qoşunlarını sərhədlərdən və təmas xətlərindən geri çəkməsi”, “öz müqəddəratın təyin etmə”, “Rusiyaya birləşmə” iddialarını irəli sürürlər...***

- Öncə onu qeyd edim ki, ordu qurmaq yalnız vəsait tələb etmir, bunun üçün insan resursları, uzun illər aparılan sistemli iş aparılmalıdır. Koçaryan və Sarkisyan birləşib yenidən hakimiyyətdə təmsil olunsalar da, onlar çox yaxşı dərk edir ki, bu artıq qeyri-realdır.

Sənin insan resursun çatışmır ki, bundan sonrakı dövrdə nəinki Qarabağ və ətraf ərazilərdə, Gədəbəy, Qazax, Tovuzdan tutmuş, ta Naxçıvana qədər böyük ərazilərdə tank, top, dronlarla təmin edib Azərbaycanla sərhədi təmas xəttinə çevirəsən. Yoxdu bu qüvvə...

Məsələnin başqa tərəfi... Sizin də qeyd etdiyiniz kimi, digər tərəfdən də müəyyən şərtlərin irəli sürülməsidir. Qarabağla bağlı əslində Paşinyanın beynində olan və uzun illərdir buna görə ittiham edildiyi yalnız ermənilərin təhlükəsizliyinə zəmanət verən bir formula gedilməsidir. Yaxşı başa düşür ki, fərqli olan bütün digər mövqelər yeni toqquşmalar və erməni xalqının məhvinə səbəb olacaqdır. Bunu dərk etmək üçün çox da uzağa getməyə ehtiyac yoxdur. Tarixən Azərbaycanla sülh şəraitində yaşadıqları bütün dövrlərdə və yaxud, azərbaycanlılarla, türklərlə mehribanlıq münasibətlərində demoqrafik cəhətdən artıblar,

> *Bu gün Azərbaycanın taleyi beynəlxalq titullu şəxslərdən deyil, rəsmi Bakının addımlarından asılıdır*

> *Qarabağın mülki erməniləri müharibədə, demək olar ki, iştirak etməyiblər*

inkişaf ediblər, iqtisadi inkişaf qazanıblar və sair. Əks halda, o dövlətlərin hamısında bütün parametrlərini itiriblər. Qarabağ və ətraf 7 rayonda qarşımızda fərqli bir mənzərə, yəni yüksək inkişaf etmiş bir durum olsaydı, orada sıx məskunlaşma getsəydi, milyonlarla insan da Cəbrayıldan, Zəngilandan Kəlbəcərə qədər yaşasaydı, savaş sürətlə gedərdimi? Hər bir küçə və meydanda gedən müharibə görün nələrə səbəb olardı. Görün, mülki insanların prosesə qoşulması hansı nəticələr doğurardı...

İlk dəfədir bunu söyləyəcəyəm: faktiki Qarabağın mülki erməniləri müharibədə, demək olar ki, iştirak etməyiblər. Bilirsiniz niyə? Onlar dərk edirdilər ki, savaşı Azərbaycanla ümumiyyətlə aparmaq lazım deyil, hətta o, mümkün də deyil. Ona görə də meydanda hərbi qüvvələr məğlub oldular. Beləliklə, status haradan verilə bilər? Sən məğlub olub, danışıqlar meydanında necə xüsusi bir şərtlər irəli sürə biərsən?! Var belə bir nümunə? Ulu öndər Heydər Əliyevdən başqa tarixdə çox az istinad nöqtələri, faktlar var ki, sən qarşı tərəfə imkan verməmisən ki, onlar arzuladıqları sənədi imzalatdırıb səndən alsınlar. Yoxdur belə hadisələr. Ona görə də indiki reallıqda sizin də qeyd etdiyiniz bir neçə maksimalist iddia daha çox ona xidmət edir ki, Azərbaycan həqiqətən də Ermənistanın yaşamına, siyasi təhlükəsizliyinə, varlığına dair müəyyən öhdəliklərdə olsun. Bu, başadüşüləndir, proses Qarabağ müstəvisindən çıxıb. Bu, son təzyiq alətidir. Paşinyan tam əmin olsa ki, Azərbaycan bəyan edir ki, Ermənistan üçün heç bir problem olmayacaq, sərhəddə ağır sılahları toplamayacaq, kommunikasiyaların açılması şəraitində dinc yanaşı yaşam olacaq, o, erməni xalqının xilaskarı kimi çıxış edib, Azərbaycanla o sənədəri imzalamağa hazırdır ki, bu savaş bitsin. Həmin sənədə qol çəkəcək. Buna tam hazırdır. Erməni psixoloji aləmi Paşinyanın portretini cızaraq, dəfələrlə erməni mediasında onu türkiyəçilikdə, azərbaycanpərəstlikdə, casusluqda, gizli razılaşmalarda ittiham edirlər. Hərçənd, bunun heç biri doğru deyil. Paşinyan qatı ermənipərəstdir. Yalnız ona görə ki, erməni xalqının nümayəndəsidir. Yalnız o dərk edir, başa düşür ki, bütün hesablamalarda hər rayonun bir cinahında milyonluq türk xalqı, digər bir hissədə 30 milyona qədər İranda yaşayan azərbaycanlı soydaşımız, 10 milyon azərbaycanlı, Orta Asiya hövzəsində, hərçənd bunlarla heç bir sərhədi olmadığı şəraitdə yenə də bir türk respublikaları təmsil olunurlar. Belə şəraitdə hansı savaşçı özünə bir status, yaxud başqa bir müddəa qazanıb öz xalqının taleyinə zərbə vurar?!

### Sülhə hazırlıq

Ermənistanla paralel bizim insanlarımızın da sülhə hazır olması gərəkdir, bu çox önəmlidir. Mən çox arzu edərdim ki, Ermənistan və Azərbaycan arasında heç bir vasitəçi olmadan danışıqların keçirilməsinə nail olaq. Bunun üçün bütün mənalarda siyasi, iqtisadi, hərbi zərurət ortadadır. Çox arzu edərdim, növbəti görüşlər Zəngəzur mahalında keçirilsin. Fərq etməz, bu, Zəngəzurun Qərbində olacaq, yoxsa Şərqində. Bunu Zəngilanda da reallaşdırmaq mümkündür, Meğridə də. Xatırlayırsınızsa, Koçaryan özünü bir qədər əvvəlki hərbi xunta təmsilçisi olmaqdan kənar göstərmək üçün ulu öndər Heydər Əliyevin təklifinə razı olub Sədərək ərazisi üzrə bir görüşdə də olmuşdur. Tarixi nümunədə bu var. Ona görə də hesab edirəm, bizim hazırkı reallıqda Avropa Şurasının da, beynəlxalq dairələrin də irəli sürdüyü delimitasiya, demorkasiya məsələsi, sərhəd boyunca hərbi birləşmələrin hansı məsafədə yerləşməsi, sanki danışıqların 5-7-ci müddəalarını önə çıxarmaq kimi görünür. Əsas məsələ sülh müqaviləsinin Azərbaycanın irəli sürdüyü və ölkə üçün təhlükəsizlik formulu olan müddəalar üzrə imzalanmasıdır. Bundansonrakı reallıqda deyilən digər məsələlər üçün tam zəmin yaranmış olacaqdır və nisbi bir etimad mühiti də uzun toqquşmalardan sonra ilk dəfə yarana biləcək. Yalnız ondan sonra həmin digər məsələləri də dəyərləndirmək olar.

### Rusiya amili

***- 10 Noyabr üçtərəfli sazişinə görə əsas vasitəçi olan Rusiya bu prosesdə harada dayanır, hansı addımları atmalıdır? Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlıları sülh sazişinə təminat yaradacaq əsas 4-cü bəndin və digər addımların yerinə yetirilməsi üzrə nə vaxt hərəkətə keçəcək?***

- Mənə elə gəlir ki, Rusiyanın 10 noyabrda göstərdiyi davranışlar Azərbaycan tərəfindən məqbul sayıldığına və Rusiyanın ənənəvi siyasətindən fərqli davranışlar olduğuna görə bizim tərəfimizdən qəbullanmışdır. Bununla bərabər, Rusiya içərisində müxtəlif qüvvələr var ki, onlar ənənəvi olaraq hansısa imperiya duyğularını qabardırlar. İkincilər millətçi - faşist təmayülü təmsil edir, bu bölgələrə pereferiya kimi baxıb onları milli subyekt kimi tanımamaq mövqeyi göstərirlər və s. Bizim ölkəmiz içərisində də çox sərt davranışların tərəfində olanlar var. Ulu Öndərdən bu yana cənab Prezidentin Rusiya ilə münasibətləri dəqiq, hüquqi, siyasi, regional, geosiyasi münasibətlərdə qarşılıqlı mənafelərin tanınmasına dayanıb. 22 fevralda da imzalanmış sənəd onu özündə ehtiva edib ki, Azərbaycan Rusiyaya qarşı bir forpost, cəbhə açmayıb və özünə qarşı da eyni davranışları gözləyir. O sənəddə müstəqilliyimizə, bütövlüyümüzə hörmət qeyd olunubsa, biz daim o sənədə istinad edəcəyik. Bu gün ölkəmiz tərəfindən Rusiyaya qarşı hər hansı embarqo, blokada tətbiq olunmayıb. Yeganə olaraq Rusiya-Ukrayna savaşında Türkiyə və Azərbaycan qədər onun barışla sonuclanmasını istəyən və buna görə mühüm addımlar atan dövlətlər yoxdur. Başqaları savaşın meydanı və şiddəti artsın deyə, bir siyasət ortaya qoyurlar. Bizim isə əsas niyyətimiz həmin savaşda silah satmaq, xüsusi qazanclar əldə etmək deyil, “tərəflər zəifləsin, bizim mövqeyimiz güclənsin” amalına sahib deyilik. Ona görə də bu bölgədə sanksiyalara məruz qalmayan yeganə dövlət Azərbaycandır. Bu, bizə üstünlüklər verir. İran da bəlli səbəblərdən 1979-cu ildən hansı durumdadır, sizə bəllidir. Qardaş Türkiyə də müxtəlif Avropa ölkələri ilə çox sərt münasibətdədir. Yalnız indki dövrdə İsraillə münasibətlər normallaşmaqdadır. Rusiyaya qarşı olan sanksiyaların sayı dünyada rekord səviyyəyə çatıb. Belə olan şəraitdə Azərbaycanın siyasi, iqtisadi, hərbi pəncərə rolu bütün bölgə dövlətləri, xüsusən də Ermənistana xilasa gedən bir yol ola bilər. Onu xeyir kimi dərk etməyən qüvvəni hansı formada adlandırmağa da çətinlik çəkirəm. Ona görə də fikirlərimizi onunla tamamlamaq istərdim ki, Azərbaycanın taleyi bu gün hansısa diplomatlardan, xarici qonaqlardan, beynəlxalq məkandakı titullu şəxslərdən deyil, məhz öz ölkəmizdən, rəsmi Bakının addımlarından asılıdır. Qoy onlar bizim fəaliyyətimizin nəticəsini özləri üçün həlledici görsünlər. Burada cənab Prezidentin bir sözünü xatırlatmaq istərdim: gündəliyi biz müəyyənləşdiririk. Bu, çox önəmlidir. Yoxsa Minsk qrupu, qeyriləri, hansısa səfərlər, bəyanatlar dövrü bir era kimi keçmişdə qalıb.

*✍ Tahirə Qafarlı*

## Müsahib

***Hazırda Nyu-Yorkda yaşayan “Şərq-Qərb” araşdırmalar mərkəzinin rəhbəri, siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az-a bu dəfəki müsahibəsində Ukrayna prezidenti Volodimir Zelenski və komandasının hazırda apardığı siyasət, Rusiya lideri V.Putinin Baydenlə öncədən razılaşaraq Ukraynanı Şərqi və Qərbi Ukrayna nüfuz dairələrinə bölməsi barədə iddialar, Ukraynadakı savaşın nəticələrindən asılı olaraq Qarabağ ətrafında baş verənlər və Azərbaycan-Ermənistan münasibətlərinin gələcəyi haqqında ehtimallar və digər məsələlər barədə danışdı.***



**Ərəstun Oruclu,**
“Şərq-Qərb” araşdırmalar mərkəzinin rəhbəri, siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

# “Rus hərbiçilər Qarabağdan çıxarılmalıdır”

***- Ərəstun bəy, doğrudanmı hazırkı prezident Vladimir Zelenski, yaxud ondan öncəki Ukrayna prezidentləri Rusiya, eləcə də ABŞ və Avropaya yönəlik siyasətlərində hansısa ciddi səhvlərə yol veriblər, yoxsa?..***

- Ümumiyyətlə, belə ittihamları nəinki qəbul etmir, heç anlamıram da... Ona görə ki, Rusiyanın Ukraynaya təcavüz edib açıq işğal və soyqırımı apardığı bir vaxtda Ukrayna siyasətçilərinin səhvi; istər prezident Zelenskinin, istər ondan əvvəlkilərin, hətta Yanukoviçin belə, hansı səhvlərə yol verməsi haqda danışmaq anlaşılan deyil. Anlaşılan başqa bir şeydir: Rusiyanın Ukrayna dövlətçiliyini ləğv etməklə bağlı strateji planı olub. Rusiya ideoloqları həmin o ekstremist siyasətbazlar bunun nəzəriyyəsini də hazırladıqlarını və öncədən planladıqlarını da açıq şəkildə etiraf edirlər. Vaxtilə Şərqi Ukraynanı orada separatçı qurumlar yaradılması adı altında işğal edəndə və Krımı ilhaq edəndə Putin həmin ərazilərdə faktiki olaraq özünə bir plasdarm yaradırdı. Məqsəd ikinci mərhələdə Ukrayna dövlətini ləğv etmək idi. Ona görə də mən bir daha deyirəm: Zelenskinin, Poroşenkonun, hətta açıq rusiyapərəst siyasət yürüdən Yanukoviçin hansısa ciddi səhvə yol verdiyini güman etmirəm. Bu cür düşüncələrin təbliği yalnız və yalnız Rusiyanın həmin işğalçı siyasətinə, onun Ukraynada törətdiyi soyqırıma və Ukrayna dövlətçiliyini ləğvetmə strategiyasına bəraət qazandırmaq məqsədi güdür. Bu, sadəcə, Rusiyanın “5-ci kalon”unun fəaliyyətinin tərkib hissəsidir. Rusiya bunun vasitəsilə, yəni kimlərəsə “Zelenski və komandası səhv siyasət aparır” dedirtməklə digər postsovet ölkələrində olduğu kimi, Azərbaycan cəmiyyətində də çaşqınlıq yaratmağa çalışır. Eyni zamanda paralel olaraq Azərbaycan ictimaiyyətini də şüuraltı təslimçiliyə hazırlayır. Mən bunu yalnız belə qiymətləndirirəm, başqa dəyərləndirməm yoxdur.

> *Biz Ermənistan və ya Qarabağ siyasətimizi Rusiyanın bu və ya digər vəziyyətdə Ukraynadakı müharibədən necə çıxacağı üzərində qurmamalıyıq*

***- Azərbaycanda bəziləri Zelenski və komandasının dövlət idarəçiliyini “tik-tok” uşaqlarının oyunlarına bənzədir. Guya populist siyasət aparır, hətta bunu 1992-ci ildə Xalq Cəbhəsnin idarəçiliyi ilə müqayisə edirlər...***

- Zelenski və komandasını “tik-tok” uşağı, “KVN uşağı” adlandırmaq kimi deyimlərin hamısı “5-ci kalon”un təbliğatına uyğun fəaliyyəti möhkəmləndirmək üçündür. Ukraynanın dövlət və hökumət rəhbərləri haqqında qeyri-ciddi insan təəssüratı yaratmağa çalışırlar. Guya ki, belə bir prezident olmasaydı, xalq onu seçməsəydi, hər şey başqa cür olardı. Bu, çox uğursuz taktikadır... Ədalətlə və obyektiv düşünsək, ən azı, bu günkü vəziyyətə istinadla baxdıqda görünən budur ki, məhz Zelenskinin rəhbərliyi altında Ukrayna dövləti özünü tam səfərbər edə bildi. Ukrayna ordusu dünyaya meydan oxuyan Rusiya ordusunu bütün istiqamətlərdə darmadağın etdi. Əminliklə deyə bilərəm ki, Rusiya artıq özünün heç minimum vəzifəsinin də həllinə nail ola bilməyəcək. Ukrayna rəhbərliyinə qarşı bu cür piar məqsədli piardır və konkret maraqlara, plan və niyyətlərə xidmət edən uydurmalardır.

Qaldı Zelenskinin komandasını Elçibəy hökuməti ilə müqayisə etməyə, Elçibəy hökuməti elə Zelenski kimi siyasət yürüdürdü. Elçibəy hakimiyyətə gələn kimi Qarabağın böyük bir hissəsi işğaldan azad edilmişdi. Sadəcə olaraq Rusiya o zaman Azərbaycan dövlətçiliyinin kövrək və zəif olmasından yararlanaraq ölkəmizdəki agentura şəbəkəsinin vasitəsilə əvvəlcə sabotaj edib Kəlbəcərin ermənilər tərəfindən işğalına nail oldu. Ardınca da hərbi qiyam təşkil etdi. Kreml bunu Ukraynada etməyə nail ola bilmədi. Başqa bir dövr, başqa bir dönəmdir. Ukrayna Azərbaycan dövlətindən istənilən halda daha güclü bir dövlətdir. Eyni zamanda əlbəttə ki, burada beynəlxalq dəstək faktorunu da nəzərdən qaçırmamalıyıq. Bu amilin böyük rolu oldu. Bəzən o görünmür, amma o da faktdır ki, hələ Rusiyanın təcavüzü ərəfəsində Ukrayna ordusunun bu qəsbkar müharibəyə qarşı hazırlanmasında Qərb, ABŞ, Avropa, NATO, o cümlədən Türkiyə faktorunun inkarolunmaz rolu var...

***- Putinin Baydenlə öncədən razılaşaraq Ukraynanı Şərqi və Qərbi Ukrayna nüfuz dairələrinə böldüyünü söyləyənlər də var...***

- Bu, ciddi mövzu deyil. ABŞ-ın və onun israrı ilə Avropa Birliyinin tətbiq etdiyi ssenarilər, sanksiyalar faktiki olaraq Rusiyanı dövlət olaraq təcrid etməyə yönəlib. Belə bir halda hansı anlaşmadan söhbət gedə bilər. Rusiya dövləti artıq öz mövcudluğu uğrunda mübarizə aparmalı, bunun haqqında düşünməlidir.

***- Sizcə, Rusiya Ukraynada savaşı hər baxımdan uduzacağı halda, Qarabağ və Ermənistan ətrafındakı proseslər tam olaraq Azərbaycanın xeyrinə yönələcəkmi?***

- Düşünürəm, biz Ermənistan və ya Qarabağ siyasətimizi Rusiyanın bu və ya digər vəziyyətdə Ukraynadakı müharibədən necə çıxacağı üzərində qurmamalıyıq. Bu, yanlışdır və ümumiyyətlə, bu hadisələrin arxasınca getməkdir. Azərbaycanın özünün beyin mərkəzləri, dövlət, hakimiyyət orqanları, qeyri-hökumət sektorunda çalışan ekspertləri tərəfindən ciddi bir strategiya hazırlanmalıdır.

Şübhəsiz, həmin strategiyada deyilən amillər, yəni Rusiyanın Ukrayna savaşında məğlub olduğu və ya qalib çıxdığı halda nələr olacağı da nəzərə alınmalıdır. Xətti özümüz seçməliyik, özümüz diqtə etməliyik ki, hadisələrin arxasında yox, önündə olaq.

Baş verənlərin arxasınca getmək, artıq öncədən məğlubiyyətə imza atmaqdır. Bu mənada hesab edirəm ki, hər iki situasiyanı nəzərə almaqla yanaşı, prosesləri özümüz idarə etməli və öndə özümüz getməliyik...

***- Putinin müvəqqəti də olsa, Ukraynadakı planlarının çoxunu həyata keçirə biləcəyi halda, Qarabağ və Ermənistan ətrafında nələr baş verə bilər?***

- Qarabağ ətrafında, Azərbaycan-Ermənistan münasibətlərində və ilk növbədə iki ölkə arasındakı sərhəd ərazilərdə proseslər istənilən halda gedəcək; Rusiya Ukraynada qalib və ya məğlub çıxsa da. Bu gün bunun əlamətləri artıq görünməkdədir. Sülh anlaşması ilə bağlı görüşlər başlayan kimi həmin görüşlər Avropa Birliyinin moderatorluğuyla həyata keçirildiyinə görə artıq Rusiya reaksiyasını göstərməkdədir...

Bilirsiniz ki, Ermənistanda Paşinyana qarşı yeni bir etiraz dalğası başladılıb. Qarabağdakı separatçı tör-töküntüləri həm siyasi, həm də hərbi xarakterli bəyanatlar verir, tələblər irəli sürür. Əlbəttə ki, bunların hamısı o “Rusiya sülhməramlıları” deyilən hərbi kontingentin himayədarlığı altında baş verir. İstər İrəvana, istərsə də Xankəndinə bütün komandalar Moskvadan gəlir. Ona görə də biz öz maraqlarımız, öz istəklərimiz, öz hədəflərimiz üzərində konkret strateji fəaliyyət planı qurmalıyıq. Bütün taktiki addımlar hesablanmalı və məsələni köklü şəkildə həll etməliyik. Məsələni köklü şəkildə həll etmək dedikdə, torpaqlarımızda qanunsuz olaraq yerləşmiş həmin Rusiya kontingentinin çıxarılması və ardınca da dərhal antiterror əməliyyatı başlayaraq Qarabağdakı bütün qanunsuz silahlı dəstələri ləğv etmək üzərində düşünməliyik. Bax, bunu edəcəyiksə, bunu edə biləcəyiksə, əlbəttə ki, olaylar bizim xeyrimizə cərəyan edəcək. Yox, biz gözləsək ki, Rusiya hansı addımları atacaq, hansı vəziyyətə düşəcək və ümumiyyətlə, nə baş verəcək, bu halda biz öz ölkəmizə, öz torpaqlarımıza aid qurulmuş prosesdə müşahidəçi statusuna düşəcəyik.

*✍ Sultan Laçın*

# PISA beynəlxalq qiymətləndirmə tədqiqatı

## Layihə

***Azərbaycan yenidən PISA beynəlxalq qiymətləndirmə tədqiqatının əsas mərhələsində iştirak edir. Aprelin 18-dən başlanan qiymətləndirmə Təhsil Nazirliyi və Təhsil İnstitutu tərəfindən həyata keçirilir. Təhsil Nazirliyindən verilən məlumatda bildirilib ki, ötən il pilot mərhələsi keçirilən bu tədqiqatın əsas mərhələsində Bakı üzrə 180 ümumi təhsil müəssisəsindən 8 minə yaxın şagirdin iştirakı planlaşdırılıb. Proses xüsusi karantin rejiminin tələbləri nəzərə alınaraq təşkil edilir. Əvvəlki illərdən fərqli olaraq PISA 2022 tədqiqatının əsas mərhələsi kompüter əsaslı həyata keçirilir.***




Məlumat üçün qeyd edək ki, PISA proqramı 2000-ci ildən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organisation for Economic Co-operation and Development) tərəfindən 3 ildən bir təşkil olunur. Növbəti PISA tədqiqatı isə COVID-19 pandemiyası ilə əlaqədar olaraq bir qədər gecikib. Bu günə kimi 7 dəfə PISA dəyərləndirilməsi keçirilib. PISA-nın hər tədqiqatında oxu, riyaziyyat və təbiət elmlərindən biri əsas mövzu kimi götürülür. Məsələn, 2009-cu ildə oxu üzrə bacarıqları, 2015-ci ildə isə təbiət elmləri əsas mövzu kimi götürülüb. PISA 2018-də oxu savadlılığı ilə yanaşı maliyyə savadlılığı da nəzərə alınıb. PISA tədqiqatında 2000-ci ildən 90-dan artıq ölkə ümumilikdə 3 000 000 şagird iştirak edib.

Tədqiqata qatılan məktəblilər kompüter proqramı vasitəsilə təsadüfi seçim əsasında müəyyənləşdirilir. PISA tədqiqatlarında istifadə edilən "savadlılıq" anlayışı, şagirdlərin bilik və potensialını inkişaf etdirmək və cəmiyyətə daha effektiv bir şəkildə qatılmaq və töhfə vermək üçün yazılı mənbələri tapmaq, istifadə etmək, qəbul etmək və qiymətləndirmək kimi müəyyən edilir. Azərbaycanda keçirilən sonuncu PISA göstəricilərinə əsasən şagirdlərin riyaziyyat üzrə orta balı 420, oxu üzrə 389 və təbiət elmləri üzrə isə 398 olub.

PISA bacarıqları üç kateqoriyada qiymətləndirir: təməl, orta və yüksək. Təməl səviyyə sadə əlaqələr qurmaq, məhdud sayda şərhlər vermək bacarığı olaraq dəyərləndirilir. Orta səviyyədə isə məsələyə şərh vermək getdikcə çətinləşir. Çünki şagirdlər açıq və bir qədər aydın verilməyən məlumatları taparaq əlaqələndirməli, sətiraltı mənanı başa düşməlidirlər. Bu baxımdan, orta səviyyə daha dərin əlaqə qurmaq, daha əhatəli şərh vermək bacarığını irəli sürür. Şagirdin mürəkkəb vəziyyətlər üçün açıq modellərlə effektiv şəkildə işlədiyini göstərir. Şagird daha çevikdir. O, öz şərhlərinə əsaslanan müzakirələr qura və bu müzakirələri əlaqələndirə bilər. Yüksək səviyyədə yer alan şagirdlər isə daha mürəkkəb, ziddiyyətli məqamlar üçün modellər hazırlaya və bu modellərlə işləyə bilər. Bu modellərlə əlaqəli kompleks problemlərin həlli üçün uyğun problem həlletmə strategiyalarını seçə, müqayisə edə və qiymətləndirə, ən xırda təfərrüatına qədər şərh edə bilər.

PISA sualları üç fərqli formada soruşur. Sualların təxminən yarısı 4-5 variantlı seçimdir, şagirdlər 4 və ya 5 variantdan birini seçirlər. Yaxud onlar razılıqlarını bəli və xeyr cavabları ilə bildirərək mümkün cavabdan birini seçirlər. Qalan suallar isə açıq tipli suallardır. Açıq suallar dörd müstəqil ekspert tərəfindən qiymətləndirilir.

> *“Hər bir fənn səriştələrin, dəyərlərin formalaşmasına və inkişafına xidmət etməlidir*



**Asif Cahangirov,**
əməkdar müəllim, professor

Yeri gəlmişkən, ötən həftə PISA-nın ideya müəllifi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxerin (Andreas Schleicher) Bakıya səfər edib. Təhsil Nazirliyi və "T-Network"un təşkilatçılığı ilə baş tutan bu səfərdə Andreas Şleyxer Pedaqoji Universitetin akt zalında 200-dən çox iştirakçının önündə XXI əsrin təhsilinin əsas çağırışlarından danışıb.

Tədqiqatın ideya müəllifi çıxışı zamanı qeyd edib ki, PISA bir yarış deyil: "Bu bir güzgüdür ki, ölkə təhsil müstəvisini müəyyənləşdirə bilsin. Təhsil elmi-tədqiqat sahəsinə çevrilməlidir ki, tələbələr daha yaxşı öyrənsin, müəllimlər daha yaxşı öyrənməni təmin etsinlər. Tədrisin keyfiyyəti çox vacibdir, nəinki sinfin böyüklüyü. Resursların sərf olunması vacibdir. Yaxşı müəllim üçün sinfin böyüklüyü və kiçikliyi mane deyil. Müəllim tələbələrinin hər biri haqqında məlumatlı olmalıdır, əks halda tədris uğurlu olmayacaq. Müəllimlər arasında peşəkar iş birliyi olarsa, peşə bacarıqları da bir o qədər dərinləşəcək. Bu həm də məmnunluq hissi yaradacaq. Təhsilin səviyyəsi birbaşa olaraq müəllimin peşəkarlığı ilə əlaqəlidir".

O həmçinin vurğulayıb ki, təhsildə əsl fərq resursların necə istifadə olunması zamanı ortaya çıxır: "Təhsilə edilən sərfiyyatın həcmi deyil, resursların necə istifadəsi fərq yaradır. Məsələn, təhsilə ən çox maliyyə vəsaiti ayıran Lüksemburq, ondan daha az vəsait ayıran Estoniyadan aşağı nəticələr göstərir".

PISA-nın ideya müəllifi onu da diqqətə çatdırıb ki,ən yaxşı investisya kiçik yaşlardan doğru təməllərin yaradılmasıdır.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycan şagirdləri PISA-dan başqa daha 2 beynəlxalq qiymətləndirmə tədqiqatında iştirak edəcək. Sözügedən qiymətləndirmə tədqiqatları aşağıdakılardır:

ICILS 2023

Ölkəmiz 2022-ci ildə 8-ci sinif şagirdlərinin kompüter və informasiya savadlılığı üzrə beynəlxalq qiymətləndirmə tədqiqatı - ICILS 2023-ün (International Computer and Information Literacy Study) sınaq mərhələsində iştirak edəcək. Əsas mərhələsi 2023-cü ildə baş tutacaq tədqiqat ilk dəfə 2013-cü ildə Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IEA) tərəfindən aparılıb. 5 ildən bir keçirilən qiymətləndirmə tədqiqatı şagirdlərin hesablama düşüncəsinin qiymətləndirilməsi ilə yanaşı, məktəbdə kompüterlərlə problemi həll etmə bacarıqlarını necə inkişaf etdirdikləri barədə məlumatlar toplamaq və beynəlxalq səviyyəli müqayisələr aparmaq üçün bir fürsətdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

TIMSS 2023

2022-ci ildə ölkəmizin IV və VIII sinif şagirdləri Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı - TIMSS 2023-ün (Trends in International Mathematics and Science Study) sınaq mərhələsində iştirak edəcək. 4 ildən bir keçirilən tədqiqatın əsas mərhələsi 2023-cü ildə baş tutacaq. Tədqiqatın əsas məqsədi şagirdlərin nəticələri əsasında riyaziyyat və təbiət elmləri üzrə təlim və tədrisin təkmilləşdirilməsi üçün məlumat toplamaqdır. Azərbaycan bu beynəlxalq qiymətləndirmə tədqiqatında kompüterəsaslı iştirak edəcək.

Qeyd edək ki, Azərbaycanın beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunması əsas məqsədlərdən biri kimi təyin edilib.

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əməkdar müəllim, professor Asif Cahangirov hesab edir ki, səriştə əsaslı təhsilə keçməyin zamanı çoxdan yetişib:** "Bu məsələ "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda strateji istiqamət kimi əksini tapıb. Biz yenə də səriştə əsaslı təhsilə keçmirik. PISA-da öndə olan ölkələr niyə qabaqdadır? Çünki onlar qabaqlayıcı təhsili təşviq etdilər. Son illərdə Estoniya təhsilində sıçrayışlar oldu. Estonlar Avropada birinci yerdədir, Finlandiya və digər qabaqcıl ölkələri qabaqlayıb öz kurikulumlarına yaradıcı yanaşıblar. Kurikulumları öz milli xüsusiyyətlərinə, ölkənin inkişaf strategiyasına uyğunlaşdırıblar, bunsuz mümkün deyil. İnsanı fənlər formalaşdırmır. Fənlər insanı formalaşdıran bir vasitədir.

Hər bir fənn səriştələrin, dəyərlərin formalaşmasına və inkişafına xidmət etməlidir. Ən böyük problemimiz budur. Bizim kurikulumlar, proqramlar dəyişməlidir, onlar səriştələr formatında olmalıdır. Dünya qeyri-standart texnologiyalara doğru gedir.

Gələcəkdə cəmiyyət o qədər qeyri-müəyyən olacaq ki, insan peşəsini, əvvəllər deyildiyi kimi, 3 dəfə deyil, 7 dəfə dəyişməli olacaq. Hazırda universitetlər, təhsil müəssisələri elə məsələlər üzərində işləyir ki, insanlar qeyri-müəyyənliklərlə dolu olan gələcəkdə öz yerini tapa bilsinlər. Onun üçün də əsas səriştələrdir. Tənqidi təfəkkürü, aparıcı ideyanı seçməyi bacarmaq, ömürboyu təhsil almaq üçün zəruri olan səriştələr, təhliletmə bacarığı, ümumiləşdirmə bacarığı kimi bacarıqların formalaşdırılması əsas götürülür. Biz uşaqlarımızda riyazi, yaradıcı təfəkkürün inkişafına nail olmalıyıq ki, gələcəkdə cəmiyyətdə yerlərini daha asan tapa bilsinlər".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Donbasdakı faciə Rusiyanı Ukraynada xüsusi əməliyyata başlamağa vadar edib. Bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib. Putin ölkəsinin Donbasda həyatın normal axarına dönməsinə nail olacağını vurğulayıb. O, bölgədə sülhün bərqərar olacağına ümidini ifadə edib.

■ Qardaş Türkiyənin Bursa vilayətində baş verən terror hücumu nəticəsində həyatını itirən məmurun ailəsinə və yaxınlarına hüznlə başsağlığı veririk, yaralılara Allahdan şəfa diləyirik. Bu barədə məlumatı Azərbaycan Xarici İşlər Nazirliyi öz tvitter səhifəsində paylaşıb. "Azərbaycan terrorun bütün forma və təzahürlərini qətiyyətlə qınayır", - deyə məlumatda bildirilir.

■ "Bakı Metropoliteni" QSC-nin əməkdaşı ürəktutmadan dünyasını dəyişib. Hadisə dünən səhər saatlarında baş verib. Metropoliten stansiyaları sərnişin girişinə açılmazdan əvvəl süni qurğular təmirçisi, 1961-ci il təvəllüdlü Vamiq Həsənov gecə növbəsindən işdən çıxarkən ürəyi dayanıb.

AZƏRBAYCAN HAVA YOLLARI

■ "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətində yoxlamalar iki gündür başlayıb, dövlət vəsaitinin və dövlət əmlakının auditi aparılır". Bunu jurnalistlərə açıqlamasında Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib. Komitə sədri bildirib ki, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətində (AZAL) yoxlamaların iyun ayında yekunlaşması gözlənilir.

■ Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin birinci rübü ərzində 6955 şəxsə əlillik təyin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, onlardan 3037-nə ilkin, 3918-nə təkrar əlillik təyinatı aparılıb.

■ Rusiyanın tanınmış türkoloqu, M.V Lomonosov adına Moskva Dövlət Universitinin Asiya və Afrika Ölkələri İnstitutunun prezidenti Mixail Meyer vəfat edib. Qeyd edək ki, Mixail Meyer qondarma erməni soyqırımının olmadığını, 1915-ci il hadisələrinə Osmanlı İmperiyasının faciəsi kimi yanaşmalı olduğunu bildirən elm adamı olub.

# Qərb, artıq Ermənistanın yalanlarına inanmır

**ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatın Ermənistan hissəsində 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə və işgəncə və ləyaqəti alçaldan rəftara məruz qoyduqlarına dair məlumatlar yer alıb. Belə bir faktın ABŞ Dövlət Departamentinin saytında yer alması nəyi ifadə edir?**



**Çingiz Qənizadə,**
hüquqşünas






**Elxan Şıxəliyev,**
hərbi ekspert

■ **Bu istiqamətdə hafta.az-a açıqlama verən hüquqşünas Çingiz Qənizadə bildirib ki, ABŞ Dövlət Departamentinin rəsmi saytında Azərbaycanla bağlı belə faktların işıqlandırılması maraqlıdır.**

"Birincisi, ona görə ki, ABŞ Dövlət Departamenti uzun illərdir ki, insan hüquqlarına dair hesabatlar yayır və həmişə də əsası olmayan, şayiələr əsasında formalaşmış müəyyən fikirləri, ittihamları orada qeyd edir, Azərbaycanla bağlı mənfi rəyin formalaşmasına nail olmağa çalışırlar. Amma ikinci Qarabağ savaşı bir çox dövlətləri, o cümlədən ABŞ-ı da reallıqla barışmağa məcbur edir". Ç.Qənizadənin fikrincə, Avropa İttifaqının Azərbaycan-Ermənistan münasibətlərində təşəbbüsü öz əlinə alması və sülhə xidmət edən addımlar atması təbii ki, ABŞ-la da razılaşdırılır.

"Nə qədər Avropa İttifaqından söz getsə də, Amerikanın Avropaya təsirini danmaq qeyri-mümkündür. Bu baxımdan əsirlərə və mülki şəxslərə qarşı törədilmiş işgəncələr, qətl hadisələri, kütləvi məzarlıqların tapılması, eyni zamanda bu bölgələrdə azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması ilə bağlı faktlarının ABŞ Ddvlət Departamentinin saytında olması artıq onu deyir ki, bu cür dövlətlər və indiyə qədər ATƏT-in Minsk Qrupu həmsədrləri, digər Ermənistana dəstək verən qüvvələr artıq Ermənistanın yalanlarına inanmır və həqiqəti dərk etməyə və bunu öz saytlarında, bəyanatlarında qeyd etməyə razılaşıblar".

> *“İkinci Qarabağ savaşı bir çox dövlətləri, o cümlədən ABŞ-ı da reallıqla barışmağa məcbur edir*

Ç.Qənizadə hesab edir ki, bunu bizim diplomatiyanın uğuru kimi qiymətləndirmək olar. "Ermənistanda hökumətin parlament qarşısında hesabatı zamanı Paşinyan belə bir ifadə işlətdi ki, "artıq "arsax"la bağlı bizə deyirlər ki, sizə kömək edə biməyəcəyik. Ona görə yox ki, biz sizə kömək etmək istəmirik, ona görə ki, biz artıq sizə kömək edə bilmirik". Bu ifadənin Paşinyanın dilindən səslənməsi və indi də ABŞ Dövlət Departamentinin saytında erməniləri ittiham edən faktların sadalanması onu göstərir ki, artıq qərb Ermənistanın yalanlarına inanmır, bölgədəki reallıqları dərk edir, bölgədə sülhə xidmət edən Azərbaycanın mövqeyini dəstəkləyir".

■ **Hesabata münasibət bildirən hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a açıqlamasında vurğulayıb ki, bu, gələcəkdə Azərbaycanın Ermənistana qarşı atacağı addımlarda əlimizi güclü edəcək**. Görünən odur ki, Ermənistan cavabdehlikdən yayına bilməyəcək: "ABŞ Dövlət Departamenti bu cür bilgiləri öz saytında yerləşdirməklə Ermənistana istər I Qarabağ, eləcə də II Qarabağ müharibəsində Azərbaycan ərazilərində əsir götürülən hərbçilərə, əhaliyə qarşı törədilmiş cinayətlərdən məlumatlı olduğunu çatdırır". Onun sözlərinə görə, beynəlxalq hüquqa əsasən bu sanksiyaların tətbiq edilməsinə, Azərbaycan tərəfdən Ermənistana qarşı qaldırılacaq iddialara görə kompensassiyaların ödənilməsinə gətirib çıxara bilər.

> *“Biz gələcəkdə bütün faktların hüquq müstəvisində öz əksini tapması üçün bu bilgilərə istinad edə biləcəyik*

"Biz gələcəkdə bütün faktların hüquq müstəvisində öz əksini tapması üçün bu bilgilərə istinad edə biləcəyik. Bu məlumatları beynəlxalq təşkilatlar əldə edir və ABŞ Dövlət Departamentinin saytında paylaşılır. Bu faktlara əsasən birbaşa Ermənistana əhaliyə, ərazilərimizə, hərbçilərimizə qarşı törədikləri cinayətkar əməllərə dair iddialar qaldırıla bilər. Ermənistan istənilən halda ərazilərimizdə törətdiyi bu vandalizm hərəkətlərinə görə cavab verəcək. Təbii ki, bu zamana bağlı məsələdir. Aərbaycanın da bu yöndə çalışmaları mövcuddur". E.Şıxəliyev qeyd edib ki, 44 günlük müharibəyə qədər erməni vandalizminin sübutları işğal altındakı ərazilərdə olduğu üçün əlimizdə güclü sübutlar yox idi. "Ancaq torpaqlarımız azad olunandan sonra gedib o yerlərdə kütləvi məzarlıqları araşdırmağa, işğal altındakı rayonlarımızdakı zərəri hesablayıb beynəlxalq təşkilatlarla paylaşmaq imkanımız yaranıb. Azərbaycan ermənilərin törətdiyi dağıntıların, qırğınların həcmini hesablaya bilir və bu da istənilən halda hüquq müstəvisində əlimizi güclü edəcək".

***Tahirə***

# Kiyev tədricən öz həyatına qayıdır...

**Hazırda Kiyevdə ərazi müdafiə birləşmələrinin komandir heyətində olan Azərbaycan diasporunun Ukraynadakı tanınmış simalarından biri, Ali Radanın hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi və Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik Elxan Nuriyevlə hafta.az üçün budəfəki söhbətimizdə son günlər hərbi əməliyyatların gedişatı, Ukrayna daxilindəki və ətrafındakı hərbi-siyasi proseslər, ölkə paytaxtındakı gerçək durum, Rusiyanın məğlub olacağını labüd edən amillər və s. haqqında danışdıq.**



**Elxan Nuriyev,**
UZB-nin mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik

## Müsahib

***- Ukraynadakı hərbi-siyasi durumu necə dəyərləndirirsiniz?***

- Hazırda Ukraynada ölkənin cənubu, Donbas və Krımı azad etmək uğrunda böyük müharibəyə hazırlıq gedir. Rəsmi Kiyev Qərbdən, ABŞ və NATO ölkələrindən gözlədiyi yardımları, silah və texnikaları almaqda davam edir. Yeni silah və texnikalar ən son nəsil texnologiyalar üzrə hazırlanmış mürəkkəb qurğular olduğundan hərbi poliqonlarda, ərazi müdafiə birləşmələrində onların öyrənilməsi və onlardan bacarıqla istifadənin mənimsənilməsi prosesi gedir. Yəni Ukrayna tərəfi ciddi fədakarlıqla mükəmməl yeni savaş, böyük döyüşlər mərhələsinə hazırlıq görür.

Bizdə olan, eləcə də xarici kəşfiyyatların əldə etdiyi məlumatlara görə, Rusiyanın döyüşlərdə iştirak etmiş müqavilələli peşəkar hərbçilərinin 40 faizindən çoxu Ukraynaya təkrar döyüşlərə qayıtmaqdan imtina edir. Rusiya dövləti tərəfindən buna görə onlara cinayət işi qaldırılmasıyla qorxu tətbiq edilir, eyni zamanda, əksinə, maaşlarının qaldırılmasıyla bağlı təkliflər də olunur. Bizdə olan məlumata görə, Rusiya hərbçilərinin xeylisi, hətta həbs olunmağı döyüşə yollanmaqdan üstün tutur...

***- Donbas-Mariupol cəbhəsindəki əməliyyatların gedişi haqqında bir hərbi ekspert kimi nə deyə bilərsiniz?***

- Ukrayna Qərbdən aldığı uzaqmənzilli artilleriya qurğuları və yeni növ aviasiyanın, hava hücumundan müdafiə üçün lazer kompleksləri və s. köməyi ilə yaxın vaxtlarda Mariupolda ciddi hərbi dəyişikliklər etməyə hazırlaşır, yəni hər şeyi də açıq demək olmur. Ümumiyyətlə, baş verənlər göstərir ki, Ukrayna ordusu hər gün güclənməkdə, qüdrətlənməkdə, düşmən tərəfi isə əksinə, demoralizə olunmaqda davam edir. Yerlərdə Ukrayna tərəfinə əsir düşən Rusiya hərbçilərinin öz həmkarlarına döyüşlərə qatılmamaq barədəki videomüraciətləri gündən-günə çoxalmaqdadır. Bir sözlə, düşmən tərəfinin problemləri qat-qat çoxdur. Ukrayna tərəfi isə artıq mənəvi baxımdan qalibdir, ancaq həmin qələbəni həm də fizikiləşdirmək istəyindədir...



***- Necə hesab edirsiniz, Rusiyanın, Allah eləməmiş, Donbas və Luqansk vilayətlərini bütün sərhədləri boyu işğal etməyə gücü çatarmı? Axı Putin mayın 9-da Moskvada qələbə paradı keçirməyi planlaşdırır...***

- Bəli, Putin mayın 7-9-dək Ukraynanın iki iri şəhərini - Xarkovu və Odessanı da işğal etmək niyyətindədir. Parad üçün "Mosfilm"də dekorasiyalaradək, orden-medallaradək hər şey isfariş verilib. Yəni mayın 9-u Putin parad keçirmək və guya yeni hərbi uğurlarını öz əhalisinə çatdırmaq istəyindədir. İnanırıq ki, bunlar heç cür mümkün olmayacaq. Bundan əlavə, o, Xerson vilayəti vasitəsilə Krımı şirin su ilə təmin etmək və bir də Donbas və Luqansk vilayətlərinin inzibati ərazisinin tamamilə Rusiyanın nəzarətinə keçirilməsini planlaşdırır. Bu məqsədlə Kreml Ukrayna ordusunun yüksək döyüş əzmkarlığını və müasir texnologiyalara malik olmasını nəzərə alaraq Donbas ərazisinə Ukrayna qüvvələrindən 5 dəfə çox canlı qüvvə və texnika toplamağı planlaşdırır. Öncə dediyim kimi, Rusiyanın canlı qüvvənin komplektləşdirilməsində çox ciddi problemləri var...

*"Paytaxtda hər kəsin eyvanında hazır "Molotov kokteyl"ləri var...*

*Bu mərhələ üçün Rusiya ilə danışıqların heç bir perspektivi yoxdur*

Xarkov vilayətinin cənub-şərqindən Slavyansk, Kramotorsk və Konstantinovka istiqamətində düşmənin həmlə istəyi böyükdür. Aprelin 14-də İzyum şəhəri yaxınlığında düşmənin növbəti tank kalonu məhv edildi. Bu, Rusiyanın 1-ci tank ordusunun komandirsiz qalmış artıq dördüncü tank birliyidir. Onu da deyim ki, Ukrayna özünün əlində olan və Qərb ölkələrinin verdiyi dəqiq kəşfiyyat məlumatları sayəsində işğalçı Rusiya ordusunun Ukrayna ərazisində və sərhədə yaxın yerlərdə bütün yerdəyişmələrinə nəzarət edə bilir. Yəni hər hansı bir gözlənilməz əməliyyatın baş verməsi mümkünsüz görünür. Bu mənada Ukrayna cəbhədəki ümumi vəziyyətə və yerlərdə operativ taktiki əməliyyat şəraitinə tam nəzarət edir...

***- Kiyevdə sosial-iqtisadi durum necədir? Ərzaq, dərman çatışmazlığı-filan yoxdur ki?***

- Hər şey öz qaydasındadır. Ərzaq, yaxud dərmanla bağlı heç bir problemimiz yoxdur. Apteklərin hamısı işləməsə də, xeylisi işləyir. Bankomatlar da işləyir.

***- Paytaxta qayıdan əhalinin sayı çoxdur son günlər?***

- Əlbəttə, çoxdur. Artıq dükanlarda, apteklərdə növbələr yaranır. Kiyev tədricən öz həyatına qayıdır...

***- Əhalinin ümumi əhval-ruhiyyəsi necədir?***

- Həmişəki kimi, bütün çətinliklərə rəğmən çox yüksək. Hamı hər zaman öz torpağını, şəhərini, küçəsini, məhləsini, evini qorumağa hazırdır. Hər kəsin eyvanında, həyətində kanistrlərlə benzin ehtiyatı və hazır "Molotov kokteyl"ləri var. Hər yerdə, hər küçədə, hər dalanda, hər küncdə postlar fəaliyyət göstərir. Şəhərə daxil olan yüzlərlə kiçikli-böyüklü küçələrin hamısı böyük beton plitələrlə bağlanıb və bəzi yerlərdə yalnız minik və ərzaq daşıyan maşınlar üçün kiçik keçidlər qoyulub. Bu mənada Kiyevi işğal etmək mümkün deyil. Kiyev şəhərinin ərazisi təxminən 900 kv. Km.-dir. Pentaqon hesablayıb ki, yalnız Ukrayna paytaxtını ələ keçirmək üçün 1 milyon yarımlıq canlı qüvvə lazımdır...

***- Siz yenə də ərazi müdafiə birləşmələrində fəal iştirak edirsiniz?..***

- Bəli, bildiyiniz kimi, mən Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri kimi də fəaliyyət göstərirəm. Bu mənada da məsuliyyətim böyükdür. Biz hazırda Kiyevin bir sıra strateji məntəqələrini qoruyuruq. Ərazidə cavabdeh zabitlərdən biriyəm. Onu deyim ki, kifayət qədər peşəkar və ciddi komandamız var. Bunun nəticəsində hazırladığımız, təlim keçdiyimiz minlərlə döyüşçüdən bugünədək yalnız 20-si şəhid olub. Komandir kimi problemimiz ondan ibarətdir ki, bizi aşağıdan-yuxarı sıxışdırırlar, yuxarılarla heç bir problemimiz yoxdur. Yəni yerlərdə hər gün yeni-yeni sakinlər, vətəndaşlar birləşmələrə yazılmaq üçün müraciət edir.

***- Rusiyadakı proseslər haqda hansı nəticələrə gəlmisiniz?***

- Son günlər Rusiyada bir çox həbslər olub. O cümlədən Putinin keçmiş köməkçisi, "Rus dünyası" taftalogiyasının baş memarlarından biri və Donbasın, Krımın işğalının ideya müəlliflərindən, kuratorlarından biri olan Surkovun da həbs edildiyi dəqiqləşib. Bundan əlavə, FTX-nin və Müdafiə Nazirliyinin 150-dək zabiti və iki generalının həbsi, yaxud təcrid olunması da təsdiqlənib. Deməli, Kremldə böyük çaxnaşma və qarşıdurma yaşanır. Bizdə olan məlumata görə, gerçək durumu dərk edən bir sıra peşəkar Rusiya generalları mart ayının 24-dən bəri siyasi hakimiyyətə çatdırırlar ki, Ukraynadakı əməliyyatların davamı mənasızdır və bu, hədsiz itkilərə və Rusiya dövlətinin özünə ağır zərbələr vurulmasına gətirib çıxaracaq. Rusiya tərəfi artıq uduzur. Bu günlərdə, artıq Qərb Buça və digər məntəqələrdəki kütləvi qətliamlardan sonra birmənalı olaraq Rusiyanın bugünkü formada qala bilməyəcəyi haqqında siyasi qərarını verib. Bunun həll edilməsi zaman məsələsidir. Putinə qarşı loyallığı ilə seçilən Almaniya da öz yüngül zirehli texnikalarını Ukraynaya göndərmək qərarına gəlib. Hazırda Qərbdən elə silahlar var, artıq çatdırılıb, eləsi də var, gəlməkdədir. Ukrayna Silahlı Qüvvələri intensiv təlimlər və yeni silah və texnikaların öyrənilməsi ilə məşğuldur...

***- Ukraynada baş verənlərin gələcəyini necə görürsünüz?***

- Təəssüf ki, Avstriya kanslerinin son şans kimi Putinlə görüşündən sonra məlum oldu ki, bu mərhələ üçün Rusiya ilə danışıqların heç bir perspektivi yoxdur. Putin qəti şəkildə bildirib ki, onun məqsədi Ukraynanı bir dövlət kimi ləğv etməkdir. Yəni Ukrayna cəbhəsində II Dünya savaşından sonra ən güclü və genişmiqyaslı hərbi əməliyyatların olacağı artıq heç kəsdə şübhə yaratmır.

Onu da deyim ki, Rusiya Ukraynanı işğal etmək üçün 10 milyon qoşun toplasa da, öz məqsədinə tam nail ola bilməz.Yenə də hansısa şəhəri, kəndi işğal edə bilər. Haranısa uzunmüddətli əldə saxlamaq iqtidarında deyil. Bu dövlət bu xalqa gərəklidir. Ukraynada son illərin demokratik dəyişiklikləri xalqda özünə və dövlətinə inam və nəyisə dəyişə bilmək inamı yaradıb. Bu inamı sarsıtmaq heç cür mümkün deyil...

✍ ***Sultan Laçın***

## Təhlil

**Son illər dünyada ərzağın bahalaşması Rusiya-Ukrayna müharibəsi nəticəsində daha da sürətlənib. Əvvəllər qlobal istiləşmə fonunda kənd təsərrüfatı sahələrinin məhsuldarlığı azaldığı üçün, məhsul istehlakçıya daha yüksək qiymətə satırdı. Rusiyanın Ukrayna torpaqlarına hərbi təcavüzü isə bu prosesə bir az da antroogen təsir qatdı. Xüsusilə, müharibə ölkələrə sübut elədi ki, rifahı və iqtisadi sabitliyi qorumaq üçün daxili istehsalı maksimum inkişaf etdirmək, xaricdən idxalı bacardıqca azaltmaq lazımdır. Məsələn, dünyada gedən indiki təşvişoyadıcı proseslərdən bəlkə də ən az təsirlənən ölkələr uzun illərdir ABŞ-ın sanksiyalarından əziyyət çəkən, xarici dünya ilə əlaqələri zorla qoparılmış Şimali Koreya, İran, Kuba, Venesuela və sair kimi dövlətlərdir. Bu ölkələr xaricdən təcrid edildikləri üçün məhz daxili istehsalı şaxələndirərək gücləndirdikləri üçün, idxaldan asılılığı maksimuma endiriblər.**

Bu yerdə bir haşiyə çıxım ki, BMT dünyada 1,7 milyard insanın aclıq təhlükəsi ilə üz-üzə qalacağı barədə xəbərdarlıq edib. Proses ancaq zəif inkişaf etmiş ölkələri deyil, eyni zamanda, güclü sənayeyə malik dövlətlərdə də ərzaq məhsullarının bahalaşmasını sürətləndirib. Məsələn, ABŞ-da illik inflyasiya 8,5 faizədək yüksəlib ki, bu da 1981-ci ildən bu yana ən yüksək göstəricidir. İngiltərədə də son 30 ildə ən yüksək inflyasiya qeydə alınıb və sair. İndi bir çox dövlət öz inkişafını müasir texnologiyaların tətbiqində, hərbi sənayenin gücləndirilməsində və sair görür. Öncə əhalinin ərzaq təhlükəsizliyini təmin etmək lazımdır ki, digər layihələri asanlıqla həyata keçirməyə stimul olsun. Bunun üçün ilk növbədə strateji ərzaq növləri olan çörək, yağ, şəkər və sairin ehtiyyatı tam təmin olunmalıdır. Necə ki, Rusiya - Ukrayna savaşından sonra regionda və dünyada ən çox problem məhz çörək və yağ, xüsusilə də bitkimənşəli yağ sahəsində yaranıb. Yəni müharibə dünyaya bəlli edib ki, sən demə taxılın və yağın, heyvani qida çeşidlərinin, kartofun və sair əsas bazası məhz Rusiya və Ukrayna imiş. Bu yerdə qeyd edim ki, Rusiya taxıl ixracına görə dünyada birincidir - ildə 8 milyard dollarlıq məhsul satır. Qlobal taxıl ixracında ilk beşliyə daxil olan Ukrayna bu sahədən 3,5 - 4 milyard dollar qazanc götürür. Qardaş ölkə və üçüncü böyük taxıl bazarımız olan Qazaxıstan isə hər il xaricə 1,2 milyard dollarlıq buğda satmaqla taxıl ixracatçılarının cədvəlində 9-cu pillədə qərar tutur. Göründüyü kimi, dünyada ən çox buğda ixrac edən ilk onluq ölkəsindən 3-ü xaricə satışı tamamilə dayandırıb, bir sıra digər ölkələrdə isə məhdudiyyətlər tətbiq olunur.

# Hindistan - Azərbaycan üçün etibarlı buğda bazarı



Bu yerdə sual yaranır: müharibə olmasaydı belə, bu ölkələr xarici siyasətdə diqtə edəsi olsaydılar, necə ki, zaman-zaman bunu edirlər, nə baş verərdi? Onu deyə bilərəm ki, heç şübhəsiz, keçmiş SSRİ coğrafiyasını və Avropanı hər şeyə məcbur edə bilərlər. Xüsusilə də Rusiya, hansı ki, onun uzun illər ərzində Türkiyə və Azərbaycana öz diqətlərini qəbul etdirmək üçün min cür bəhanələrlə ticari qadağalar, məhdudiyyətlər yaratdığnın şahidi olmuşuq. Məsələn, bir gün bəlli olur ki, pomidorda problem var, sahab meyvədə, o biri gün başqa məhsulda...

**Bəs o zaman nə edək, Rusiyanın timsalında bir ölkədən asılılığı necə azaldaq? Çox asan. Dünyada çox ölkə taxıl ixrac edir. Məsələn, bu sahədə Hindistanla əlaqələri genişləndirə bilərik.** Bu arada, Rusiya və Ukraynanın məlum qərarları sonrası bu ölkələrin ənənəvi tərəfdaşları olan bir sıra Yaxın Şərq və Afrika ölkələri məhz Hindistanın taxıl bazarına üz tutublar. Məsələn, ötən həftə Misir kimi Rusiyanın ən sadiq və böyük tərəfdaşı taxıl idxalı üçün Hindistan tərəfi ilə danışıqlara start verib. Eləcə də qardaş Türkiyə, İran, Nigeriya, Sudan, Bosniya və Hersoqovinanın Hindistanla danışıqlara başladığı deyilir. İş o yerə çatıb ki, taxıla olan tələbatını ödəmək üçün hətta Çin də uzun illərdir, heç də yaxşı münasibətdə olmadığı Hindistanla bu müstəvidə görüşlər keçirir.

Bu yerdə sual yaranır ki, əhalisinin sayı 1,4 milyard nəfərə yaxınlaşan Hindistan necə ola bilər ki, dünyaya taxıl ixrac etsin? Baxaq: Hindistan hazırda ikinci iri buğda ixracatçısı olmaqla yanaşı, dünya taxıl ehtiyyatının 9 faizini verir. Hindistan əvvəllər də taxıl ixrac edib, amma müharibənin fəsadlarını fürsət bilib ehtiyyatından daha çox məhsulu xarici bazara çıxarmaq istəyir. Məlumata görə, Hindistan son bir il ərzində buğda ixracatını 2,1 milyon tondan öz tarixinin ən yüksək səviyyəsinə - 7,85 milyon tona çıxarıb və yaxın illərdə Hindistan ixracı 12 milyon tona çıxarmağı hədəfləyib. Özü də çox qısa vaxtda. Sadəcə, ötən il apreldən avqustadək əvvəlki ilin eyni dönəmi ilə müqayisədə ixracatı 50 faiz artıraraq 4 milyon ton buğda satıb.

Təbii ki, Yaxın Şərq ölkələri belə potensialı görür və qiymətləndirməyə bilməzlər. Böyük ölçüdə Rusiya və Ukrayna buğdasından asılı olan Misir, İran, Banqladeş və İndoneziya kimi ölkələrə buğda satan Hindistan bir neçə gün əvvəl rəsmi Qahirə tərəfindən "vacib tədarükçü" kimi qiymətləndirilib. Hə, bu arada, qardaş Türkiyə və ya Misir, İran kimi, Azərbaycan da artıq Hindistandan buğda idxalı ilə bağlı danışıqlar aparılır. Onu da bilmək lazımdır ki, Hindistan adıçəkilən idxalçı ölkələrə həm çoğrafi baxımdan yaxındır (dəniz daşımaçılığı baxımından), həm də Hindistanın taxıl istehsalının artırılmasına verdiyi diqqəti nəzərə alaraq, özlərinə təhlükəsiz və potensial bazar tapmağa çalışırlar. Məsələn, Misir rəsmiləri görüş keçirərək Madhya Pradeş, Pəncab və Maharaştra əyalətləri ilə hind buğdasının idxalına dair razılığa gəliblər. Adının açıqlanmasını istəməyən səlahiyyətli şəxs "Hindu Business"a verdiyi açıqlamada deyib ki, Hindistan hazırda Misir, Türkiyə, Çin, Bosniya, Sudan, Nigeriya, İran və sair ölkələrlə buğda ixracına dair sazişlər bağlamağa yaxınlaşıb. O zaman Azərbaycanın adı niyə bu siyahıda olmasın? Axı tarixən olduğu kimi, indi də Azərbaycanın Hindistanla çox yüksək səviyyədə iqtisadi-ticari əlaqələri mövcuddur.

**Bu yerdə xatırlatmaq lazımdır ki, Azərbaycanın illik buğda tələbatı 3,5 milyon tondur. Hansı ki, bunun 40 faizi məhz idxal hesabına ödənilir.** İdxalda isə ən böyük pay yuxarıda qeyd etdiyimiz kimi, Rusiyaya məxsus olsa da, Ukrayna və Qazaxıstandan da böyük ölçüdə buğda və un tədarük etməkdəyik. İldə ümumilikdə 1 milyon tondan artıq buğda idxal olunur. Nəzərə alaq ki, hələ ötən il aldığımız buğdanın qiymətini 30 faiz qaldırmışdılar. Buna baxmayaraq, Azərbaycan buğda ehtiyatını ötən ilin sonundan başlayaraq indiyədək 4 dəfə artırıb və bu proses indi də davam edir. Amma yığılan ehtiyyat 10,2 milyon nəfər əhalisi olan Azərbaycana sonsuzadək yetəcəkmi, təbii ki, yox.

Düzünə qalsa, Nazirlər Kabineti bildirir ki, strateji ərzaq məhsulları ilə bağlı Azərbaycanda qıtlıq təhlükəsi yoxdur. Hökumət istehlak bazarında tarazlığın qorunub saxlanılacağını bəyan edib. Bunlarla yanaşı, dünya bazarındakı qeyri-müəyyənlik ərzaq ehtiyatlarının daha da artırılmasını prioritetləşdirib. Təbii ki, ən uyğun yol idxaldan asılılığı aradan qaldırılmaqdır. Bunun üçün ilk növbədə ölkə daxilində buğda istehsalını artırmaq, paralel olaraq isə idxal bazarını şaxələndirmək lazımdır. 2021-ci ildə ölkədə 595 min hektar ərazidə buğda əkilib. Praktik olaraq əkin sahələrinin 38 faizi buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur və son illər istehsalda cüzi olsa da artımlar müşahidə edilməkdir. İşğaldan azad olunan ərazilərimizin də buğda istehsalına xüsusi töhvə verəcəyi gözlənir.

Aydındır ki, dünyada bazarındakı qiymət artımları fonunda idxal infilyasiyası baş verir. Bu da ölkəyə idxal edilən ərzaq məhsullarının, o cümlədən buğdanın xərcini artırır. Bu baxımdan, hökumət anti-inflyasiya tədbirləri çərçivəsində strateji ərzaq məhsullarının qiymətlərini optimallaşdırmağa çalışır. Mövcud ehtiyatlar Ukrayna-Rusiya müharibəsi başladıqdan sonra çörəyin qiymətində sabitliyi qoruyub saxlamağa imkan verdi. Bununla belə, növbəti dövrlərdə qiymətin necə dəyişəcəyi dünya bazarındakı dəyişikliklərdən də birbaşa asılı olacaq.

Hindistanın dünya ölkələrinə buğda tədarükündə sıxıntı olmayacağı qənaətini yaradan Baş nazir Narendra Modi və iqtidar komandası fermerlərə və ümumiyyətlə kəndlilərə taxıl əkini üçün hər müstəvidə dəstək verir. Bunun sayəsindədir ki, ölkənin taxıl anbarlarında böyük ehtiyat yaranıb. Bu arada, qeyd edək ki, Hindistan dünya üzrə buğda, eləcə də düyü ixracına görə ikinci ölkədir. Hazırda Dehli hökuməti yerli təbii şəraitə uyğun yeni və daha məhsuldar çeşidlərin axtarışındadır. Eyni zamanda, istehsal texnologiyasını, məhsuldar çeşidlərin toxum bazasını yaratmaq və zərərvericilərlə mübarizə metodlarını təşviq etmək müstəvisində addımlar atır ki, dünya taxıl bazarında öz yerini daha çox möhkəmləndirə bilsin. Görülən işlərin nəticəsidir ki, son on il ərzində 32 milyon hektara yaxın ərazidə buğda səpilib. Bu sezon Hindistanda 112 milyon tona qədər taxıl yığımı nəzərdə tutulub ki, bu da ölkə tarixində rekorddur.

**Sonda onu da qeyd edək ki, Azərbaycanın Hindistandan buğda idxalı ancaq büdcəyə qənaət imkanı yaradacaq. Hindistanın ixrac etdiyi taxıl digər ixracatçı ölkələrin, o cümlədən Rusiya və Ukrayna məhsulları ilə müqayisədə xeyli ucuz, Avstraliya, Kanada, Avropa ittifaqı ölkələri və ABŞ taxılı ilə müqayisədə isə çox aşağıdır. "S&P Global Platts"in analizinə görə Hindistanın ixrac qiyməti hər ton üçün 350-360 dollar civarındadır. Müqayisə üçün, Avstraliyada ağ buğdanın bir tonu aprelin 11-də 387 dollara, Avropa İttifaqında 11,5 faiz proteinli buğdanın qiyməti 394 dollara təklif olunub.**

✍ ***Vüsal Tağıbəyli***

# Qadın məhkumlarla bir gün

**Cəmiyyətimizin həssas qrupu olan yetkinlik yaşına çatmayan və qadın məhkumlar üçün bu ərəfədə Bakıda yeni inşa olunmuş penitensiar müəssisələr istifadəyə verilib. Açılışına ölkə prezidentinin də qatıldığı müəssisə, ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən eynitipli yerin əvəzinə inşa edilib. Cəmiyyətin marağı nəzərə alınaraq sözügedən cəzaçəkmə müəssisəsində yaradılan şəraitlə yaxından tanış olmaq məqsədilə Ədliyyə Nazirliyi tərəfindən geniş ictimai təqdimat keçirilib, buraya media-tur təşkil olunub. Hafta.az-ın əməkdaşı da media-tura qatılanlar arasında idi.**




## Reportaj

İlk olaraq nəzərinizə çatdıraq ki, cəzaçəkmə müəssisəsi şəhər mərkəzindən bir qədər aralıda - Kürdəxanı qəsəbəsi ərazisində yerləşir. Daxilində inzibati binalar, yataqxana, mətbəx, yeməkxana, ana və uşaq bölməsi, müvafiq tibbi avadanlıqlarla təchiz olunmuş tibbi-sanitar hissə, məhkumların yaxınları ilə uzun və qısamüddətli görüş binası və digər tikililər olan geniş ərazini əhatə edən müəssisələr hündür divarları ilə ətrafdan təcrid olunub. Azadlıqla sərhəddə olan əsas qapıdakı ciddirejimli yoxlanışdan keçdikdən sonra, cəzaçəkmə müəssisəsi ilə əyani tanışlığımız başladı. Uzun dəhlizləri olan binaya daxil olana qədər müəssisələrin həyətini bir xeyli dolaşmalı olduq. Sıra ilə düzülü pəncərələrdən boylanan məhkumlar azadlıqdan gələnləri ayrı bir həvəslə izləyirdilər.

Yeni istifadəyə verilən penitensiar müəssisələrdə məhkumların asudə vaxtlarını səmərəli keçirə bilmələri üçün böyük imkanlar yaradılıb. Misal olaraq, 18 nömrəli Bakı Peşə Məktəbini, kompüter, tikiş, toxuculuq və televizor otaqlarını, kitabxananı, idman zalını göstərə bilərik. Həmçinin cəzaçəkmə müəssisəsinin daxilində gözəllik salonu, namaz otağı və istirahət guşəsi də mövcuddur. Onu da deyək ki, burada məhkumların sağlamlığı nəzərə alınaraq müvafiq tibbi və psixoloji xidmətlər də göstərilir.

*"Oğlumu da böyük ehtimalla Uşaq evinə verəcəklər*

Həbsxanada dünyaya gələn uşaqların anaları ilə vaxt keçirməsi üçün yaradılan Ana və Uşaq otaqlarına baş çəkdik. Dünyanın, eləcə də cəmiyyətimizin ən dəhşətli bəlası sayılan narkotik ucbatından gözlərini dörd divar arasında açan iki körpə bala var idi burada. Anaların peşmanlığı üzlərindən oxunurdu.

### Məhkum qadınlar danışır...

**■ Məhkum Abbasova Rəmziyyə xanım taleyini göz yaşları ilə danışmağa başladı. O deyir ki, iki övladı var, birini həbsxanada dünyaya gətirib.** Uşağı 3 yaşına çatdıqdan sonra ona baxa biləcək tək ümidi olan yaşlı anası isə 2 ay öncə dünyasını dəyişib, 16 yaşlı qızı isə hazırda təkbaşınadır: "Cəzamın başa çatmasına 2 il 4 aya qədər vaxt qalıb. Dörd ay sonra isə burada dünyaya gətirdiyim oğlumun 3 yaşı tamam olduğu üçün daha mənimlə qala bilməz. O, aparılacaq. Azadlıqda məni anam və 16 yaşlı qızım gözləyirdi. İki ay əvvəl anamı itirdim. İndi qızım tək qalır. Oğlumu da böyük ehtimalla Uşaq evinə verəcəklər. Ev dustaqlığına buraxılmaq üçün müraciət etmək istəyirəm. Heç olmasa, övladıma özüm baxaram. Ancaq hələ buna görə heç bir addım atmamışam".







**■ Digər həmsöhbətimiz olan məhkum qadını isə bir qədər daha şanslı hesab etmək olar.** Qızı Miraya hamilə olanda, həyat yoldaşının istifadə etdiyi narkotik maddə ilə saxlanılan Nəcibə xanım 3 il 10 ay sonra azadlığına qovuşacaq. Məhkumun qızının 3 yaşı tamam olduqda azadlıqda ona baxa biləcək ailəsi və yaxınları var:

"Bir il üç aydır buradayam. Əməlimdən çox peşmanam. Düzü, evlənəndə həyat yoldaşımın narkotik maddə aludəçisi olduğunu bilirdim. Ancaq işlərin bu yerə gələ biləcəyini düşünməmişdim heç vaxt.

İki il idi evlənmişdik. İndi onunla əlaqəmiz yoxdur. Övladını da görmür. Valideynlərim onunla danışmağıma icazə vermirlər. Azadlığa qovuşmağıma 3 il 10 ayım qalıb. Burdan çıxandan sonra həyatımı qızıma və ailəmə həsr etmək, cəmiyyətə sağlam düşüncəli övlad bəxş etmək istəyirəm".

### Kitabxana

**■ Onu da deyək ki, həbsxanada fəaliyyət göstərən kitabxana, yeməkxana, gözəllik və məişət otaqlarında işləyən qadınların hər biri məhkumlardır.** Biz də bu otaqları gəzdikcə xanımlarla ayaqüstü söhbət edib fəaliyyətləri haqqında məlumat aldıq. Səliqəli nitqi ilə digər məhkumlardan seçilən kitabxanaçı qadın deyir ki, ixtisasca kitabxanaçı olduğundan məhkumlara kitab seçimi edərkən yol göstərməyi sevir:

"Cəzaçəkmə müəssisəsində ən çox oxunan kitablar əsasən oxucuların yaş dövründən asılıdır. Mən hər zaman klassikaya üstünlük verirəm. Adam da var ki, detektiv əsərləri daha çox sevir. Həbsxana olduğuna görə təbii ki, belə kitabların oxucuları bir qədər çoxdur. 20-21 yaşlı gənclər kriminalistikaya meyilli olsalar da, çalışıram, onları klassikaya yönləndirim. Kitabxanamızda rus və azərbaycandilli kitablar üstünlük təşkil edir". "Qadın hər yerdə qadındır", - deyirlər. Doğrudan da elədir. Dörd divar arasına məhkum olan xanımlar burada da gözəlliklərindən geri qalmır, saç boyası və digər salon xidmətləri üçün müəssisənin gözəllik salonunda işləyən qadınlara müraciət edirlər. Onlar da böyük həvəslə həmcinslərinə xidmət göstərir, beləcə özlərini hər səhər oyanıb işə gedirmiş kimi hiss etdiklərini deyirlər.

### Psixoloqla söhbət...

**■ Cəzaçəkmə müəssisəsinin bəlkə də ən çətin işlərindən biri növbəti müsahibimin çiyinlərindədir.** Ədliyyə kapitanı, psixoloq Zülfiyyə İbrahimova həbsxanada məhkumlara psixoloji xidmət göstərir. Söhbət zamanı o, cəza evində psixoloq işləməyin normal həyatdakından qat-qat daha çətin olduğunu vurğuladı:

- Normalda psixoloqun günboyu 5-6 pasiyentdən artıq görüşü mümkün deyil. Ancaq cəzaçəkmə müəssisəsində çalışırsansa, məcbur qalıb daha çox insanı qəbul etməli olursan. O ki qaldı məhkumlarla işləməyə, bu olduqca çətindir. Bir var, azadlıqda psixoloq işləyəsən, bir də var, cəza evində. Azadlıqda psixoloq işləyən vaxt pasiyent hansısa problemlə bağlı müraciət edir. Bu zaman ona mühit dəyişikliyini, ailədən uzaqlaşmağı, yaxud gəzinti və səyahəti tövsiyə edirik. Burada isə müraciət edənləri nə ətrafından uzaqlaşdıra, nə də onların ailə və övlad qayğılarını azalda bilirik. Siz də bilirsiniz ki, analar hər zaman övladlarından narahatdırlar. "Yemək yeyirmi?", "Vaxtlı-vaxtında yatırmı?", "Görəsən, vəziyyəti necə oldu?" kimi suallar hər gün qarşılaşdığım problemlər arasındadır".




Kapitanın sözlərinə görə, ən çətin iş yeni gələn məhkumları həbsxana reallığı ilə barışdırmaqdır. Heç kəs bunu asan qəbul etmir:

"Bəzən yeni gələn məhkumlar törətdikləri cinayətdən asılı olaraq uzunmüddətli - 16, 18, 20 il cəza alırlar. Sən isə psixoloq olaraq bu reallığa məhkumu öyrəşdirməlisən. İlk gələndə cəzaçəkən düşünür ki, "Görəsən, mən tez buraxıla bilərəm?". Onlar belə hesab edirlər ki 2-3 il sonra azadlığa qovuşacaqlar. Bu ehtimala inanırlar. Belə insanlara ümid vermək böyük səhv olardı. Məsələn, 27 yaşlı gənc 15-20 il azadlıqdan məhrum edilir. Mən isə ona 40-45 yaşından sonra buradan çıxa biləcəyini aşılayıram. Bu səbəbdən məhkuma həqiqəti qəbul etdirmək çətindir".

Cinayət törədən insanların məhkumluq həyatı yaşadıqca etdikləri əməldən peşman olmalarına gəldikdə isə psixoloq deyir ki, bəzən buna uzun illər lazım olmur. Elə məhkumlar da var, onlar günahi özlərində deyil, başqalarında axtarırlar:

"Törətdiyi əməldən peşman olması üçün bəzi insanlara heç bir ilə belə ehtiyac qalmır. Ümumiyyətlə, cinayət törədənlər kateqoriyalara ayrılırlar. Bir qisim məhkum, əməli törətdiyi andaca peşman olur. Bəzi məhkumlar isə etdikləri cinayətə görə özlərini yox, başqalarını günahkar sayırlar. "Mənlik bir şey olmadı", "Maddi vəziyyətim məni buna məcbur etdi" və s. kimi ifadələr belə şəxslərin özünümüdafiə cümləsidir. Bir də elə cəzaçəkənlər var ki, onlar heç vaxt peşmanlıq hissi duymurlar. Hətta burada olduğu müddətdə yollar axtarır ki, azadlığa çıxandan sonra cinayəti elə törədim ki, bir də tutulmayım. Bu kateqoriyaya mənsub insanlar daha çətin reablitasiya olunur. Həbsə düşən adamlar daha çox psixoloji olaraq "olmazlar"a məhəl qoymayanlardır. Türmədə isə onlara ilk növbədə rejimlə yaşamaq öyrədilir. Məhkumlar rejimlə yaşamağa öyrəşdikcə, tədricən "olmazlar"ı qəbul edirlər".




*İlk gələndə cəzaçəkən düşünür ki, Görəsən, mən tez buraxıla bilərəm?*

Qeyd edək ki, mediaturda Penitensiar Xidmətin rəis müavini, general Oqtay Məmmədov, Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Aynur Sabitova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, ombudsman Səbinə Əliyeva və millət vəkilləri də iştirak etdilər. Onlar məhkumlarla görüş zamanı çıxışlarında dövlət tərəfindən yaradılan şəraiti yüksək qiymətləndirib, cəzaçəkənlərin cəmiyyətə adaptasiya edilməsi məsələsində görülən işlərin vacibliyini xüsusi vurğuladılar.

Sonda isə tanınmış sənət adamlarının iştirakı ilə məhkumlara konsert proqramı təşkil olundu.

✍ ***Hafta.az***

**"Azərbaycanda əlilliyi olan şəxslərin sosial müdafiəsi və tibbi-sosial reabilitasiyası sahəsində mütərəqqi addımlar atılmaqdadır. Bəzi mövcud problemlər də aradan qaldırılmalıdır". Milli Məclisin deputatı Könül Nurullayeva plenar iclasda çıxışı zamanı belə deyib. Bildirib ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda əlillərin dövlət hesabına peşə təhsili alması qeyd olunub:**

# Əczaxanalarda əlillərə pulsuz dərman verilsin



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

"Qanunda, həmçinin əlil şəxslərin ali məktəblərə ödənişli əsaslarla daxil olduğu halda onların təhsil haqqının dövlət tərəfindən ödənilməsi məsələsinin də öz əksini tapması yaxşı olardı. Eyni zamanda inklüziv təhsil üzrə hüquqi baza yaradılmasına və mövcud Dövlət Proqramının tətbiqi genişləndirilməsinə zərurət var."

Deputat qeyd edib ki, əlillərlə bağlı digər çətinlik yaradan məsələ onların işlə təmin olunması və əlillərə uyğun iş yerlərinin yaradılmasıdır: "Əlillərin fərdi reabilitasiya proqramları olmalı, onların hansı şəraitdə işləyə bilməsi müəyyən edilməlidir. Əlilliyi olan şəxslərin tibbi təminatının qanunda nəzərdə tutulması çox humanist addımdır. Əlillər əlillik vəsiqəsini təqdim etməklə bütün apteklərdən rəsmi resept əsasında təyin edilmiş dərmanları pulsuz almaq imkanlarından məhrumdurlar. Bütün əczaxanalarda əlillərə pulsuz dərman verilməsi təmin edilsə, onların bununla bağlı çətinliklərini aradan qaldırar. Belə halda apteklərə təqdim olunan əlillik vəsiqələrinin etibarlılığının yoxlanılması üçün əlillərin dövlət reyestrinin elekton bazasına çıxış təmin edilə bilər. Bununla da əlillərə rəsmi resept əsasında verilmiş dərmanların pulu dövlət hesabına ödənilə bilər". K.Nurullayeva hazırda ölkəmizdə əlilliyin müəyyən edilməsi və rəsmiləşdirilməsi proseslərinin elektron sistemə keçirilməsinə də toxunub. Bildirib ki, elektron qaydada müraciət edən zaman hansısa xırda və texniki səhv nəticəsində əlil olan şəxs rədd cavabı alır ki, bu da müəyyən problemlər yaradır: "Bu problemin də aradan qaldırılması olduqca vacibdir. Həmçinin, hesab edirəm, əlilliyin müəyyən edilməsi ilə bağlı göndərişlərin verilməsi üçün xüsusi səyyar komissiyaların yaradılması da məqsədəmüvafiq olardı".

*"Əlillərin fərdi reabilitasiya proqramları olmalı, onların hansı şəraitdə işləyə bilməsi müəyyən edilməlidir*

Deputat qanunda, həmçinin əlillərə şəhərlərarası və şəhərdaxili ictimai nəqliyyatdan istifadə zamanı müəyyən güzəştlərin nəzərdə tutulmasını da vacib hesab edir. "DOST Mərkəzi tərəfindən əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan əlilliyi olan şəxslərə evdə sosial xidmətlər göstərilir. Bu çox təqdirəlayiq haldır" deyən K.Nurullayeva hesab edir ki, bununla yanaşı, əlil şəxslərə baxan ailə üzvlərinin müvəqqəti olaraq onların yanında olması mümkün olmadığı hallarda əlillərə qayğı göstərmək üçün tam və ya yarım günlük baxım mərkəzləri də yaradıla bilər. Həmin mərkəzlərdə əlillər üçün sosial fəaliyyətlər də təşkil edilə bilər.

✍ ***Azad***



**■ Xocalı, Daşkəsən və Tovuz rayonlarına yeni prokurorlar təyin edilib. Baş Prokurorluğun Mətbuat xidmətindən hafta.az-a bildirilib ki, bununla bağlı Baş prokuror Kamran Əliyev müvafiq əmrlər imzalayıb.**

Xocalı rayon prokuroru Şahin İmanov tutduğu vəzifədən azad olunaraq Daşkəsənə prokuror təyin edilib. Daşkəsən rayon prokuroru Maarif Hüseynov isə Tovuz rayonuna prokuror göndərilib.

Baş prokurorun digər əmri ilə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi Əvəz Əliyev Xocalı rayonuna prokuror təyin edilib.



**■ Rusiya Ukraynaya konkret sənəd layihəsini göndərib və cavab gözləyir. Bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.**

"Prezident qeyd edirdi ki, Ukrayna tərəfi mütəmadi olaraq öncə əldə olunmuş razılaşmalardan, öz sözlərindən yayınır. Bu, danışıqların effektivliyi baxımından çox pis nəticələrə səbəb ola bilər. Hazırda bizim sənəd layihəsi Ukrayna tərəfinə verilib. Top onların tərəfindədir, cavab gözləyirik",- deyə o bildirib. Peskov, həmçinin qeyd edib ki, cavab müddəti Kiyevdən asılıdır. "Biz dəfələrlə demişik ki, Ukrayna tərəfinin işinin dinamikası ürək açan deyil, ona görə də ukraynalılar danışıqlar prosesini aktivləşdirməyə böyük meyl göstərmirlər".



**■ "Biz son dövrlər büdcənin icrası ilə bağlı nəzarət tədbirləri ilə bağlı müzakirələr aparırıq". Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib.**

O bildirib ki, dövlətin büdcəsinin layihəsinə və icrasına rəy vermək parlamentin əsas funksiyasıdır: "Bu funksiyanın həyata keçirilməsinə Hesablama Palatası töhfə verməyə hazırdır. Hesabatda uyğunluq auditinin çox olmasının səbəbi dövlət büdcəsinə bərpa ilə bağlıdır. Səmərəlilik auditində bərpa olmur və qarşıya qoyulan məqsədlərə nail olunmur. Parlamentin dövlət büdcəsində, digər büdcə layihələrində iştirakı, rolu bizim nəzarət tədbirlərimizlə bağlıdır. Parlamentin rolu nə qədərdirsə, palatanın da rolu o qədərdir. Kənd təsərrüfatına ayrılan subsidiyaların auditi də həyata keçiriləcək.



**■ Çin dəmir yolları Çin və Almaniyanı birləşdirəcək yeni Sian-Mannheim qatarının işə salındığını elan edib. "Sinxua" xəbər verir ki, yeni reys Qazaxıstan, Azərbaycan, Rumıniya, Macarıstan, Slovakiya və Çexiyadan keçəcək.**

Beləliklə, qatar iki dənizi - Xəzəri və Qara dənizi keçməklə yanaşı, 11,3 min kilometr məsafə qət etməli olacaq. Dənizdən keçmək üçün dəniz nəqliyyatından istifadə olunacaq. Aprelin 13-də idman malları ilə yüklənən ilk qatar Sian şəhərindən yola düşüb. Sian Azad Ticarət Limanının Tikintisi və Əməliyyat şirkətinin baş direktoru Yuan Syaotsyunun sözlərinə görə, əvvəllər az sayda Çin-Avropa qatarının keçdiyi ölkələri və bölgələri əhatə edən yeni marşrut həm Çinə, həm də beynəlxalq müəssisələrə beynəlxalq ticarət üçün yeni bazarlar açır.

## "Nar" və "Breyn Rinq" tərəfdaşlığı davam edir




**"Nar" 2022-ci ildə də ölkənin nüfuzlu bilik yarışı "Breyn Rinq"lə əməkdaşlığını davam etdirir. Artıq 19-cu mövsümə start vermiş intellekt müsabiqəsində Azərbaycanın 9 bölgəsini və 8 universitetini təmsil edən 20 komanda yarışır.**

19-cu mövsümdə komandalar 3 divizionda, Bakı, regional və tələbə divizionlarında mübarizə aparır. Bakı divizionunda 4, region və tələbə divizionlarının hər birində 8 komanda iştirak edir. Divizionların qalibləri və reytinq əsasında seçilən bir komanda mövsüm finalında görüşəcəklər. Hər cümə saat 22:00-da İctimai TV-də komandalar arasındakı kəskin bilik mübarizəsini izləmək mümkündür.

Qeyd edək ki, müsabiqəni efirdən izləyən "Breyn Rinq" tamaşaçıları da suallara cavab vermək və "Nar"dan hədiyyə qazanmaq imkanına sahidirlər. Bunun üçün efirdə səslənən xüsusi suala "Nar"gn "Twitter" səhifəsi <https://twitter.com/salam_nar>ndən cavab vermək lazımdır.

Korporativ sosial məsuliyyət strategiyası çərçivəsində davamlı layihələri ilə seçilən mobil operator "Nar" uzun illər ərzində "Breyn Rinq" layihəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq da "Nar"ın təhsilə və maarifləndirməyə dəstək KSM strategiyası çərçivəsində həyata keçirilir.

# Yeniyetmələrin narkotik aludəçiliyi



**_Son illərdə gənclər və yeniyetmələr arasında narkomaniyanın sürətlə yayıldığının şahidi oluruq. Hazırda bütün dünya bu bəla ilə mübarizə aparsa da, təəssüflər olsun ki ciddi nəticələr əldə etmək mümkün olmayıb. Ölkəmizdə isə bu problem demək olar hər gün gündəmə gətirilir, tez-tez Milli Məclisdə müzakirəyə çıxarılır. Bəs görəsən, narkomaniya ilə mübarizədə daha effektiv nəticələr əldə etmək üçün nələr lazımdır? Hafta.az-a açıqlama verən Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyev deyir ki, yeniyetməlik çağında maddəyə başlama səbəbləri ilk növbədə beyin funksiyalarının inkişafı ilə əlaqəlidir._**

## Təhlükə



**Ramin Allahverdiyev,**
Respublika Narkoloji Mərkəzinin psixoloqu

Yaxşı olardı ki, həmin yaş dövründə uşaqlar daha çox elmə, incəsənətə yaxud da idmana yönləndirilsinlər:

"Gənclər və yeniyetmələr arasında narkotik maddələrə meyillilik indinin müzakirə mövzusu deyil. Təəssüf ki bu uzun illərdir belədir. Statistikalar göstərir ki, maddəyə başlama yaş həddi yeniyetməliyə təsadüf edir. Buna səbəb olaraq bir çox faktorları göstərə bilərik. Anadan olanda arxa beyin adı verdiyimiz beyin inkişaf edir. Onun funksiyası mübarizədir. Uşaq yaşamaq üçün mübarizə aparır. Sonradan emosional beynimiz inkişafa başlayır. Bu da 12-14 yaş arasına təsadüf edir. Emosional beynin funksiyası yemək-içmək və digər prosesləri kontrol etməkdir. Ən əsas isə mükafatlandırma sisteminin inkişaf etdiyi beyin bölgəmizdir. Bu zaman şəxslərin verdiyi qərarlar məntiqi fikrə əsaslanmır. Emosional qərarlar verirlər. 22-24 yaşdan sonra bizim ön beynimiz inkişaf edir. Bu zaman da biz normal qərarlar verə bilirik. Mən, yeniyetməlik çağında maddəyə başlama səbəblərini əsas olaraq beyin funksiyalarının inkişafı ilə əlaqələndirirəm".

Müsahibimiz narkomaniya ilə mübarizədə psixoloji dəstəyin əhəmiyyətini də xüsusi vurğuladı: "Qarşısını almaq üçün hər bir cəmiyyətin öz yanaşması mövcuddur. Bəziləri qadağalar qoyur, bəziləri maarifləndirir yaxud da mükafatlandırır. Fikrimcə bunun qarşısını almaq üçün şəxsdə uşaqlıq yaş dövründə daxili və xarici resursları aktivləşdirmək, özünüqiymətləndirməni artırmaq lazımdır. Bu, şəxsləri mütaliəyə, idmana yönləndirmək ola bilər. Maddə asılılığında birinci medikamentoz müdaxilədir. İkinci isə psixoterapiyadır. Təcrübə də onu göstərir ki, maddə asılılığının reabilitasiya müddətində psixoterapiyalar həyata keçirilməlidir".

■ **Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, narkomaniya üzrə ekspert Emil Maqalov söylədi ki, narkotik maddələrdən istifadənin çoxalmasına ilkin səbəblərdən biri, indiki narkotiklərin istifadə qaydalarının əvvəlkilərlə müqayisədə qat-qat sadələşməsidir:**

"Metamfetamin kimi sintetik narkotikləri buna misal göstərmək olar. Narkotacirlərin illərdir apardığı araşdırmaların nəticəsi olaraq bu gün rahat qəbul edilən narkotiklər mövcuddur. Onlar bu yolla külli miqdarda gəlir əldə edirlər".

QHT sədrinin sözlərinə görə, təhlükənin qarşısını almaqda narkotik istifadəçilərinə müalicə mütləqdir. Bunun üçün kifayət qədər yerimiz yoxdur. Əgər problemi minimallaşdırmaq istəyiriksə, ilk növbədə narkomanların müalicə oluna biləcəyi yerlər yaratmalıyıq:

"Bakıda 5000 nəfər narkoman varsa, bizim cəmi 380 nəfərlik yerimiz var, eləcə də Sumqayıtda 1000 nəfər narkoman üçün 28 yer var. Bölgələrdə isə demək olar ki, narkodispanserlər yoxdur. Narkotik maddə bəlasının qarşısını qismən də olsa almağın digər yolu insanları mühitə sala biləcək adamları və cəmiyyətə yararlı insanları seçib dispanserlərə yerləşdirməkdir. Narkodispanserlərdə növbələr mövcuddur. Bu növbələri keçib, müalicəyə qəbul etməyi mümkünləşdirsək belə, şəxsin sadəcə fiziki asılılığı keçmiş olur, psixoloji asılılıq isə qalır. Bunun üçün insan 6 ay-1 il reabilitasiya olunmalıdır. Dövlətin belə reabilitasiya mərkəzləri yoxdur. Özəl sektorlarda qiymətlər 1500 manatdan başlayır. Narkomanların heç birinin 10-15 min manatı yoxdur ki, reabilitasiya olunub cəmiyyətə qayıtsın. Bununla bağlı dəfələrlə çıxışlarımda öz təkliflərimi vermişəm. QHT sədri olaraq komandamla birgə bu işdə dövlətimizə dəstək göstərməyə daim hazıram".

Məktəblilər arasında test yoxlanışının aparılması məsələsinə gəldikdə isə, ekspert bu üsulu effektiv hesab etmədiyini vurğuladı: "Bu baş tutsa, vəziyyət kütləvi hal alacaq. Belə olduqda qanında narkotik maddə aşkarlanan şəxsləri müalicəyə cəlb etmək zərurəti yaranır. Az əvvəl də qeyd etdiyim kimi, müalicə üçün kifayət qədər yerimiz yoxdur. Elə adamlar var, bir dəfə istifadə edib. Biz onları aşkara çıxarsaq həmin şəxslərin evində, ailəsində, iş yerində problemlər yaranacaq". Müsahibimiz məktəb psixoloqlarının işə laqeyd yanaşmasına da diqqət çəkdi:

"Biz narkomaniyanın başlamasına icazə verməməliyik. Bunun üçün məktəblərin üzərinə böyük yük düşür. Şagirdlərlə psixoloqlar işləməlidir. Məktəbdə 200-300 manata heç kəs bu işi görməz. Sırf narkomanlarla işləyən psixoloq tanışlarım var ki, gün ərzində tək bir seansa 50 manat qazanır. Məktəb psixoloqlarını psixoloq yerinə qoyan da yoxdur. Bununla bağlı dəfələrlə Təhsil Nazirliyinə müraciətlər ünvanlamışam. Məktəblərdə psixoloqların sayı da azdır. Hər məktəbdə heç olmasa 3-5 psixoloq olmalıdır". E.Maqalov narkomaniya ilə mübarizədə hər kəsin işə daha ciddi yanaşmalı olduğunu bildirdi. Axı, "plan doldurmuruq":

"Tez-tez məni təhsil müəssisələrinə dəvət edirlər. Yanımda qəzəbli məktəb direktoru, yaxud da polis əyləşir. Onların yanında uşaqlar sual verməyə çəkinirlər. Yaxud məni çağırıb şəkil çəkdirir, monitorda da hansısa maarifləndirici videorolik verib sağollaşırlar. Əsas odur ki, biz tədbir keçirdik və bunu pritokollaşdırdıq. Təbii ki, belə yola verilən işlərin nəticəsi olmur. Mən çalışıram ki, uşaqların təhsil müəssisələrində etibar etdikləri müəllimləri ilə birgə onlarla danışıqlar aparım. Uşaqlarla açıq danışıb, problemi aşkarlamaq, həlli ilə bağlı addımlar atmaq olur".

■ **Millət vəkili Fazil Mustafa isə hesab edir ki, dövlətimiz narkotik maddə təhlükəsini minimuma endirmək gücünə malikdir:** "Fikrimcə, narkotik maddə asılılığının çoxalmasının qarşısını qismən də olsa almaq üçün əsas çıxış yolu səmimi mübarizə aparmaqdır. Bəlanın qarşısını tam almaq olmasa da, təhlükəni minimuma endirmək mümkündür. Misal üçün, maddə asılılığı olan şəxsləri digərlərindən ayırmaq və başqalarını qorumaq olar.

Bütün bu məsələləri həyata keçirmək üçün dövlətin əlində imkanlar var. Əsas məsuliyyət isə cəmiyyətin üzərinə düşür. Təəssüflər olsun, cəmiyyət problemə laqeyd yanaşır. Təhlükəli bir məqam da cəmiyyətin gələcəyə laqeyd yanaşmasıdır". Deputatın sözlərinə görə, hazırda Azərbaycanda narkomaniya ilə effektiv mübarizə aparılmır: "Bu bəla ilə ciddi şəkildə mübarizə aparmaq lazımdır. Bu, böyük faciədir. Biz Milli Məclisdə test sisteminin müzakirəsini aparır, götürülməsini tələb edirik. Məktəblilərdən qan analizi vasitəsilə narkotik testi götürmək, maddə asılılığını vaxtında aşkarlayıb, onun qarşısını almaq imkanlarını artıra bilər".



**Fazil Mustafa,**
millət vəkili

*"Yeniyetməlik çağında maddəyə başlama səbəbləri ilk növbədə beyin funksiyalarının inkişafı ilə əlaqəlidir*

*Narkomanların heç birinin 10-15 min manatı yoxdur ki, reabilitasiya olunub cəmiyyətə qayıtsın*

*Bəlanın qarşısını tam almaq olmasa da, təhlükəni minimuma endirmək mümkündür*



**Emil Maqalov,**
RSTD İctimai Birliyinin sədri, narkomaniya üzrə ekspert

### Yeri gəlmişkən...

**Azərbaycanda qeydiyyatda 34 000 nəfərdən çox narkotik istifadəçisi var, onlardan isə 23 000 nəfərdən çoxu inyeksion narkotik istifadəçiləridir. Ekspertlərin rəyinə görə, reallıqda onların sayı dəfələrlə çoxdur.**

İçərisində azyaşlıların da olduğu və əsas hissəsini 18-35 yaşlı gənclər təşkil edən narkomanların sayının ildən-ilə artması xüsusi narahatlıq doğurur. Narkomanlıq digər xəstəliklərin yaranmasına əsas səbəblərdəndir. Misal üçün, Azərbaycanda İİV-QİÇS infeksiyası aşkar olunmuş şəxslərin böyük bir hissəsi inyeksion narkotik istifadəçisi olub. Gənclər arasında aşırı doza qəbulu və narkotiklərin sui-istifadəsi ilə əlaqədar hepatit və digər ağır xəstəliklərdən ölüm halları da narkomanlığın ağır fəsadlarındandır. Xüsusən son vaxtlar "şüşə", "patı" adı altında yayılmış mütamfetaminin fəsadları daha ağırdır. Narkotiklərin qanunsuz dövriyyəsi və onlardan sui-istifadə cinayətkarlığın artmasının, o cümlədən ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən biridir. Ölkə üzrə 2021-ci ildə qeydə alınmış 26 000 cinayət faktının 20 %-dən çoxu (5252 cinayət) narkotiklərlə əlaqədar törədilib. 2021-ci ildə Azərbaycanda qaçaqmalçılıq cinayətlərinin 69 %-ni narkoqaçaqmalçılıq təşkil edib.

*Banu*

# Xaricdə Təhsil Proqramından çıxarılan ixtisaslar

**_Azərbaycan gənclərinin dövlət hesabına xaricdə təhsil alması üçün bu ilin sentyabrından sənəd qəbuluna başlanılması planlaşdırılıb. Qeyd edək ki, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın hədəf göstəricisi 2022-2026-cı illərdə, hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsidir._**



## Təhsil

### Yeri gəlmişkən...

**Məlumat üçün onu da bildirək ki, 2022-2023-cü tədris ili üçün Dövlət Proqramı üzrə 30 universitetdən 15 prioritet ixtisas sahələri müəyyən edilib.**

Bunlar əsasən informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı istiqamətləridir. Yeni Dövlət Proqramında demək olar ki, humanitar sahələr üzrə prioritet elan olunan ixtisaslar yoxdur. Eyni zamanda, tibb sahəsi də prioritet ixtisaslar siyahısında yer almayıb. Bəs, görəsən, yeni Dövlət Proqramının prioritet ixtisaslar siyahısında humanitar və tibb sahələrinə hansı səbəbdən yer verilməyib? Yeni prioritet ixtisaslar hansı meyarlar əsasında müəyyənləşdirilib?

Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edəcək.

■ **Məsələni hafta.az-a şərh edən təhsil eksperti Kamran Əsədov deyib ki, bu Proqram Prezident İlham Əliyevin xaricdə təhsil almaqla bağlı imzaladığı ikinci Dövlət Proqramıdır:** "Daha öncə imzalanan sərəncam 2007-2015-ci illəri əhatə edib. Həmin təhsil proqramında 5000 gəncin xarici ölkələrdə təhsil almağı nəzərdə tutulsa da, 3500 nəfər gənc nüfuzlu universitetlərdə təhsil almağa göndərilmişdi. Hazırda onlar Azərbaycanın əmək bazarında müstəsna fəaliyyətləri ilə xarakterizə olunurlar. Bir sıra özəl sektorlarda rəhbər vəzifələrdədirlər. 2007-2015-ci illərdə xarici ölkələrdə təhsil alan gənclərə 95 milyon manatdan çox vəsait ayrılmışdı. Həmin şəxslər dünyanın aparıcı ali təhsil ocaqlarında Azərbaycanın əmək bazarında ehtiyac olan ixtisaslar üzrə təhsil almışdılar. İndi tamamilə fərqli istiqamət seçilib. 2015-ci ildə təhsilə başlamış tələbə 2022-ci ildə məzun olur. Zəncirin qırılmaması və dayanıqlı iqtisadiyyatın formalaşması üçün xarici ölkələrdə təhsil almış gənclərə böyük ehtiyac var. Budəfəki proqramda tamamilə fərqli və spesifik ixtisaslara yer verilib. Hansı sahədə mütəxəssislərə ehtiyac duyulursa, onların hazırlığına, yetişdirilməsinə üstünlük verilir. Məsələn, hazırda neft-qaz mühəndislərinə, hüquqşünaslara o qədər də ehtiyacımız yoxdur. Ona görə də yeni Dövlət Proqramında prioritet elan olunan ixtisaslara diqqət yetirsəniz görərsiniz ki, siyahıda nəinki humanitar sahələrə, heç neft-qaz sahəsinə də yer verilməyib.

*"Siyahıda nəinki humanitar sahələrə, heç neft-qaz sahəsinə də yer verilməyib*

Biz xarici ölkələrə ona görə gəncləri göndəririk ki, onlar Azərbaycanda iqtisadiyyatın, xidmət sektorunun, informasiya texnologiyalarının inkişafına öz töhfələrini verə bilsinlər. Yəni, əmək bazarında daha çox hansı kadrlara ehtiyac varsa, həmin istiqamətlər üzrə kadr hazırlığına diqqət yetirilir. Digər bir tərəfdən yeni Proqramda uyğun təhsil müəssisələrində bakalavriat və əsas etibarı ilə magistratura səviyyələrində Azərbaycan gənclərinin təhsili üçün imkan yaradılıb. Bu da öz növbəsində müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların daha tez hazırlanmasına töhfə verəcək. Çünki bakalavriat pilləsindən fərqli olaraq magistratura pilləsində təhsil müddəti az olduğundan həm ixtisaslı kadr hazırlanmasına daha az vaxt sərf olunacaq, həm də vəsait az xərclənəcək. Bu da peşəkar kadrların əmək bazarına sürətlə inteqrasiyasına imkan yaradacaq". Tibb ixtisaslarının gənclərin xaricdə təhsil proqramına salınmamasının səbəbinə gəlincə, ekspert bildirib ki, bu sahəyə investisiya qoymaq sərfəli deyil: "Düzdür, bizdə peşəkar həkimlərə ehtiyac var. Amma dünyada bu təhsilin xüsusi tədris forması mövcuddur. Məsələn, tibb təhsilinin uzunmüddətli olması, eləcə də maliyyənin bahalı olması və s. qoyulan investisiyanın geri qayıtmasında ciddi problemlər yaradır. Ona görə də bu sahə prioritet ixtisaslar siyahısına daxil edilməyib".

*Sevinc*

# İnsanların əlində minlərlə özəlləşdirmə çeki qalıb



**"İnvestisiya haqqında" qanun layihəsinin hazırlanması, özəlləşdirmə ilə bağlı məsələlərin müzakirələri qiymətli kağızların, vauçerlərin yenidən dövriyyəyə buraxılmasını da aktuallaşdırıb. Bəzi müəssisələrin özəlləşdirilməyə çıxarılacağı ilə bağlı rəsmi açıqlamalara istinad edən vətəndaş əllərində qalmış özəlləşdirmə çeklərinin yenidən tədavülə buraxılmasını, yeni şərtlərlə qanunverici bazanın yaradılmasını tələb edirlər.**

Qeyd edək ki, 90-cı illərdə vətəndaşlara paylanmış özəlləşdirmə çeklərinin tədavül müddəti 2011-ci ildə dayandırılıb. Reallıq isə budur ki, bu gün əlində çeki qalan kifayət qədər insan var. Ziyalıların yekdil fikri bundan ibarətdir ki, özəlləşdirmə çeklərinin tədavül müddəti yenidən artırılmalı və zərər görmüş vətəndaşlara kompensasiya ödənilməlidir.

■ **Millət vəkili, Vəhdət Partiyasının sədri, Ali Məhkəmənin keçmiş rəhbəri Tahir Kərimli hesab edir ki, mülkiyyət hüquqları pozulmuş insanların haqqı bərpa olunmalıdır. Deputatın sözlərinə görə, vətəndaşların dövlətdən narazı qalmasına imkan vermək olmaz:** "Problem odur ki, Azərbaycan özəlləşmə prosesini çox sürətlə həyata keçirdi. Təsəvvür edin, Böyük Britaniyada 200 il ərzində başladılan özəlləşdirmənin hələ 85 faizi icra olunub. İllərəvvəl ölkədə tüğyan edən "qara bazar" qiymətləri kağızların ciddi alqı-satqı yerinə çevrilmişdi. Dəllallar insanların əlindəki vauçeri su qiymətinə ələ keçirdilər. Xeyli vətəndaş isə çekləri satmadı, saxladı və dəyərinin artmasını gözlədi. Nəticədə insanların əllərində minlərlə özəlləşdirmə çeki qaldı. Onlar gələcəkdə daha optimal variantın gələcəyinə ümid edirdilər. Amma gözlədikləri kimi olmadı. Milli Məclisin iclasında Qarabağda həyata keçiriləcək özəlləşdirmə prosesi ilə bağlı çıxış edərkən bu məsələni gündəmə gətirdim. Qeyd etdim ki, keçmişdə aparılan özəlləşmədən dərs almalı, nəticə çıxarmalıyıq. Qüsurları yenidən təkrar etməməliyik. Minlərlə insanın mülkiyyət hüququ pozulub. 2011-ci ildə özəlləşdirmə çeklərinin müddəti başa çatıb və çeklərin dəyəri sıfırlanıb".

Parlament üzvü bildirib ki, çeklər əvəzi ödənilmədən dəyərdən düşmüş sayılıb: "Bəzi insanlarımız ya dolanışığa görə çeklərini satıblar, ya da imkan edib dövriyyəyə buraxa bilməyiblər. Bununla bağlı bizə də çoxsaylı müraciətlər daxil olur. Axı bu insanların günahı nədir? Niyə dövlətdən narazı qalmalıdırlar? Həm Konstitusiyamıza, həm beynəlxalq hüquqa görə vətəndaşın vəziyyətini yaxşılaşdıran hallar keçmişə şamil olunur. Elə qanun qəbul etməliyik ki, vauçer sahibləri özəlləşmədən faydalana bilsinlər. Problemin müsbət həllinin tərəfdarıyam. Dövlətimizin buna imkanı çatır. Xüsusi qərarla, Neft Fondundan maliyyə ayırmaqla həmin vətəndaşlarımızın pozulmuş haqqı təmin oluna bilər". Hüquq müdafiəçisi Novella Cəfəroğlu da düşünür ki, problem mütləq mənada zərərçəkmiş vətəndaşların xeyrinə həll olunmalıdır. Ekspert bildirib ki, minlərlə insan özəlləşdirmə çekini saxlayır və nə vaxtsa dəyər qazanacağına ümid edir: "Problem həllini tapmalıdır. Vətəndaşların pozulan hüquqlarını bərpa etmək lazımdır. Yaxşı olar ki, vauçerlər hansısa müəssisənin özəlləşdirilməsinə cəlb olunsun. Şəxsən mən çeklərin əvəzinə pul deyil, özəlləşdirmədə pay sahibi olmağı istəyərəm. Qoy, ailəm, nəvələrim mülkiyyət hüququndan faydalansınlar. Dövlət və Milli Məclis bu məsələyə çox ciddi yanaşmalı və reaksiya verməlidir. Bu qədər adamın əlində çek var". N.Cəfəroğlunun fikrincə, əgər özəlləşdirmə prosesi yubanarsa, çeklərin əvəzinə vətəndaşlara kompensasiya ödənilə bilər: "Bu, elə ciddi maliyyə tələb etmir. Amma yenə deyirəm, qiymətli kağızların özəlləşdirməyə cəlb olunması, tədavülə buraxılması daha məqbuldur. Birdəfəlik vəsait bir müddət sonra bitəcək. Mülkiyyət hüququndan istifadə edən vətəndaşlar daimi qazanc əldə etmək imkanı əldə edəcəklər".

Məlumat üçün qeyd edək ki, özəlləşdirmə çekləri ulu öndər Heydər Əliyev tərəfindən 1997-ci ilə qədər anadan olmuş bütün ölkə vətəndaşlarına miras əmlak payı olaraq verilib. Bu çeklər dövlət qiymətli kağızları olmaqla yanaşı, həm də mülkiyyət hüququ daşıyır. Çeklərin hər birinin dəyəri eynidir. Qanuna əsasən, özəlləşdiriləcək bütün iri və orta dövlət əmlakının ən azı 65 faizi özəlləşdirmə çekləri ilə əvəzlənməli, özəlləşdirmə prosesi bu şəkildə həyata keçirilməlidir. Hər bir çekin dəyəri isə 1/32 milyonda hissədir. Bu hissəyə düşən əmlak ekvivalenti payı qanunda inflyasiyadan qorunan əmlak ekvivalenti payı kimi göstərilib. Eyni zamanda bu özəlləşdirmə paylarının banklarda girov qoyulması hüququ qanunla təmin olunub. Bu, o deməkdir ki, özəlləşdirmə çeklərinin hər birinə dövlət əmlakından düşən səhmlərin dəyəri eyni olmalıdır.

*Aydın Baxış*

*Ordumuzun şanlı Zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəmizin başa çatmasından və torpaqlarımızın işğaldan azad edilməsindən bəri ilyarım müddət keçib. O gün bu gündür, hər kəsin gözü tarixi zəfərimizi gördükləri işlərlə ölümsüzləşdirən incəsənət adamlarına yönəlib. Bu baxımdan çoxsaylı tənqidlər də var ki, Azərbaycan yazıçıları müharibə ilə bağlı sanballı heç nə ərsəyə gətirə bilməyib. Belə söz-söhbətlərin hədəf nöqtəsi Azərbaycan Yazıçılar Birliyidir (AYB) ki, hazırda bu qurumun 2000-dən çox üzvü var.*

# “Yazıçının bir ildə qazandığı...”



**Elçin Hüseynbəyli,**
Azərbaycan Yazıçılar Birliyinin katibi,
Əməkdar İncəsənət Xadimi

## Ədib

*Onlardan dördü “Xalq şairi” (Ramiz Rövşən, Vahid Əziz, Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə) yeddisi isə “Xalq Yazıçısı”dır (Anar, Çingiz Abdullayev, Kamal Abdulla, Elmira Axundova, Natiq Rəsulzadə, Elçin Əfəndiyev, Mövlud Süleymanlı).*

■ **Məsələ ilə bağlı Hafta.az-ın müsahibi Azərbaycan Yazıçılar Birliyinin katibi, Əməkdar İncəsənət Xadimi Elçin Hüseynbəyli oldu.** Elçin bəy tənqidlərə cavab olaraq müharibdən sonra çap edilən və “Qarabağın Ensiklopediyası” hesab etdiyi dastanı xüsusi vurğuladı:

“Müharibədən dərhal sonra sədrimiz Anar bəyin təşəbbüsü ilə otuz ilin həsrəti - 44 günün Zəfəri - ”Qarabağ dastanı” adlı çox sanballı möhtəşəm bir kitab çap olundu. Həmin kitabda işğaldan azad olunmuş rayonları təmsil edən şair və yazıçıların əsərləri çapdan çıxdı. Mən Qarabağ dastanı kitabını ”Qarabağın bədii ensiklopediyası” hesab edirəm, çünki çox zəngin əsərdir. Burada həm rayonlarımızın etnoqrafiyası, həm tarixi, həm özünəməxsusluğu yer alır. İkinci kollektiv kitabımız “Bütün yollar Şuşaya aparır” kitabıdır. Vaqif poeziya günlərindən sonra adamların Şuşa haqqında təəssüratları, jurnalistlərimizin reportajları yer alır. Həmin kitabın Ön sözünün müəllifi, redaktoru mənəm. Fərdi yaradıcılığa gələndə isə deyə bilərəm ki, elə müharibə vaxtı bir sıra səngər şeirləri yazıldı. Bundan başqa, Sabir Rüstəmxanlının “Qələbə tvitləri” adlı poeması, Vahid Əzizin silsilə şeirləri, Nəriman Həsənzadənin poeması çap olundu. Adını çəkə bilmədiyim onlarca yazıçımızın müvafiq mövzuda əsərləri işıq üzü gördü”.

Nasir bildirir ki, hazırda yazıçıların ən çox ehtiyac duyduqları əsərlərinin təbliğatının aparılmasıdır. Hansı ki, bu baxımdan televiziyaların və sosial şəbəkənin üzərinə böyük iş düşür:

“Bu gün yazılan əsərlərin, çap olunan kitabların təbliğatına böyük ehtiyacı var. 300-500 tirajla heç kəsi təəccübləndirmək olmaz. Təbliğat formaları dəyişməlidir. Bunun ən yaxşı yolu sosial şəbəkələr və televiziyalardır. Təəssüf ki, televiziyalar reytinq xatirinə başqa verilişlərə üstünlük verirlər. İstisna kimi, Azərbaycan Televiziyasını və Mədəniyyət kanalını göstərə bilərəm. Razıyam ki, ədəbiyyat reytinq gətirmir. Ancaq müəyyən günlərdə hekayə axşamları təşkil etmək olar. Yaxud bizi qınayırlarsa, onda hekayələrimizi ekran işinə çevirsinlər və ya teatrlarda səhnələşdirsinlər”. Həmsöhbətimiz oxuculara, yazılan əsərlərə qiymət verən zaman həcmindən savayı mövzunun dərinliyinə önəm verməlerini də tövsiyə etdi: “Bəzən “Hərb və sülh” kimi fundamental əsərlərin müqayisəsi aparılır. İndi o əsərlərin vaxtı keçib. Hazırda cəmiyyət daha interaktiv yazılar gözləyir. Düşünürəm, fundamental əsər dedikdə ona həcminə görə deyil, mahiyyətinə və tutumuna görə qiymət verilsin. Misal üçün, Ramiz Qusarçaylının “Vətən” poeması çap olundu. Fikrimcə bu, Azərbaycan tarixinə və 44 günlük Zəfərimizə həsr olunmuş ən yaxşı əsərlərdən biridir”.

Yazıçılar Birliyinin gənc üzvlərinin arasıra sosial şəbəkələrdəki “Biz sifarişlə yazı yazmırıq” kimi fikirlərinə gəldikdə isə, Elçin Hüseynbəyli Birlik tərəfindən onlarla tez-tez müzakirələr aparıldığını söylədi. Həmçinin əlavə etdi ki, sifariş həm də bir növ vətəndaşlıq borcu və şəxsin öz daxilindən gələn istəkdir: “Vaxtaşırı gənc yazıçılarla müzakirələr edilir. Əsərlər sifarişlə meydana gəlmir. Bu, doğrudur. Ancaq müvafiq məsələ ilə bağlı insanın öz daxili istəyi və tələbatı var. Sən azərbaycanlısan, burada yaşayıb-yaradırsan. Öz xalqının, millətinin dərdinə şərik çıxırsan. Nəticədə də vətənpərvərliklə bağlı əsərlər yazıb-yaradırsan. İndiki zamanda xalqın düşünən beyni, onun mənəviyyatını və dilini qoruyanlar şair və yazıçılardır, ancaq onların da kitabları alınmır. Nəşriyyatlar kitabları çap edir, qonorar çox cüzi olur. Yazıçının bir ildə qazandığı məvacib ona bir ay belə kifayət etmir. Bütün bunları nəzərə almaq lazımdır. Bəzən yazıçıları qınayanlara baxsaq görərik ki, onlar ömürlərində bir dəfə belə kitab oxumayıblar”.

Yazıçı-dramaturq, tarixi qələbəmizin incəsənətdə tərənnümü baxımından dünya təcrübəsindən yararlanmalı olduğumuzu diqqətə çatdırdı. Həmçinin bu yolda Mədəniyyət Nazirliyinin, Müdafiə Nazirliyinin və Təhsil Nazirliyinin üzərinə düşən öhdəliklərdən bəhs etdi:

“Filmlərə sifarişlər olmalıdır. Onlara müəyyən maliyyə lazımdır. Mədəniyyət Nazirliyi müsabiqələr elan edir. Hansısa filmlər də həmin müsabiqələrdə qalib gəlir və çəkilir. Müharibə mövzusunda kitabların çap edilməsi və filmlərin çəkilməsində dünya təcrübəsinə müraciət etmək olar. Məsələn, Hollivudda çəkilən filmlərin müəyyən qismi Pentaqonun sifarişi ilə ərsəyə gətirilir. Bu baxımdan, Müdafiə Nazirliyinin üzərinə məsuliyyət düşür. Onlar Ali Baş Komandanla birgə Qələbəmizin bir nömrəli qəhrəmanlarıdır. Düşünürəm, filmlərin çəkilməsi, kitabların çap edilməsi və musiqilərin bəstələnməsində nazirlik maraqlı olmalı, müəyyən sifarişlər verməlidir. Bütün bunlar kompleks işlərdir. Təhsil Nazirliyi balansında olan kitabxanalardan yararlanaraq bu işə dəstək olmalıdır”.

✍ **Banu**

## HƏFTƏ REYTİNQ

### Həftənin YARDIMI



Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, digər kateqoriyaya aid edilənlərə isə 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

### Həftənin TƏLTİFİ



Prezident İlham Əliyev Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri Aygün Attarla bağlı Sərəncam imzalayıb. Sərəncamla Azərbaycanla Türkiyə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Aygün Attar “Dostluq” ordeni ilə təltif edilib.

### Həftənin TƏLƏBƏSİ



Bakı Dövlət Universitetinin tələbəsi diplom almadan dünyanın səkkiz ölkəsinin 22 universitetindən qəbul alıb. Bu haqda “Azərbaycan universitetləri” səhifəsində paylaşım edilib. Belə ki, Bakı Dövlət Universitetinin Mexanika-Riyaziyyat fakültəsinin IV kurs tələbəsi Aysu İsmayılova dünya reytinqində 7 və 8-ci yerlərdə olan Imperial College London və University College London daxil olmaqla, səkkiz ölkənin (İngiltərə, İsveç, Danimarka, Finlandiya tam təqaüdlə, Almaniya, Çexiya, Niderland, İrlandiya) ümumilikdə 22 universitetindən qəbul alıb.

### Həftənin PULU



Ağ Ev Ukrayna Prezidenti Volodimir Zelenskinin 16 mart 2022-ci ildə ABŞ Konqresinə tarixi müraciətinə həsr olunmuş xatirə sikkəsini təqdim edib.

Bu barədə Ağ Evin hədiyyə mağazasının saytında məlumat verilib. Bildirilib ki, “Tarixi anlar” seriyası çərçivəsində prezidentlər Volodimir Zelenski və Co Baydenin təsviri, habelə Zelenskinin Konqresdə çıxışı anının əks olunduğu sikkə buraxılıb. Sikkədə Ukrayna Prezidentinin çıxışından sitat da öz əksini tapıb: “Dünyanın lideri sülhün lideridir”.

### Həftənin HÖKMÜ



Rusiyada Lyublinski Rayon Məhkəməsi 2020-ci ildə Moskvada ermənilər və azərbaycanlılar arasında baş vermiş davanın iştirakçıları ilə bağlı qərarını açıqlayıb. “Məhkəmə xuliqanlıqda təqsirli bilinən E.Ələkbərov, B.Vəliyev, P. Həmidov, T.İsmayılov və A.Qafarovu 2 il 8 ay müddətinə azadlıqdan məhrum edib. Daha iki nəfər M.Zahidov və D.Qiyasova isə 2 il 8 ay şərti cəza təyin olunub”, - deyə məlumatda vurğulanıb.

### Həftənin XƏSTƏSİ



Braziliyalı əfsanəvi futbolçu Pele yenidən xəstəxanaya yerləşdirilib. 82 yaşlı veteran hücumçu əvvəllər kimyaterapiya kursu keçdiyi San-Paulodakı “Albert Eynşteyn” klinikasına yerləşdirilib. Həkimlərin nəzarəti altında olan üçqat dünya çempionunun həyatı üçün təhlükə olmadığı bildirilib. Xatrıladaq ki, Pele ötən ilin sentyabrında yoğun bağırsağındakı şişlə əlaqədar əməliyyat edilib. Həmin əməliyyatdan sonra Pele tez-tez xəstəxanaya yerləşdirilir.

✍ *Azad Əliyev*

# “Azercell Telekom” MMC “Bakı Marafonu - 2022”nin baş sponsorudur

Ⓡ




**May ayının 15-də Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, “Azercell Telekom” MMC-nin baş sponsorluğu ilə ölkəmizin idman təqvimində mühüm yer alan “Bakı Marafonu” keçiriləcək.**

Bu il “Bakı Marafonu” yubileyini qeyd edir. Artıq 5 ildir ki, həm Azərbaycandan, həm də dünyanın fərqli ölkələrindən minlərlə idmansevər “Küləyə qalib gəl” şüarı altında “Bakı Marafonu”nda yarışır. Bu dəfə yarış sağlam həyat tərzi pərəstişkarlarını həm də yeni marşrut ilə sevindirəcək. Eyni zamanda, marafonun start və finiş nöqtəsi eyni məkanda yerləşəcək. İştirakçılar Dövlət Bayrağı Meydanında toplaşacaq və 21 kilometrlik məsafəni qət edib yenidən bu nöqtəyə qayıdacaqlar. Bu yenilik xüsusi hazırlığı olmayan iştirakçılara ehtiyac yarandığı halda başlanğıc nöqtəsinə qayıdaraq qalibləri qarşılamaq imkanı yaradacaq.

Yarışa qatılmaq üçün may ayının 10-dək “Gənclik Mall”, 28 Mall” və ya “Dəniz Mall”da quraşdırılmış xüsusi məntəqələrə müraciət edərək, eləcə də www.marathon.az <http://www.-marathon.az/> saytı üzərindən qeydiyyatdan keçmək mümkündür (ətraflı: www.marathon.az <http://www.marathon.az/>).

Qeyd edək ki, “Azercell Telekom” MMC 2017-ci ildən etibarən “Bakı Marafonu”nun baş sponsoru qismində çıxış edir. Bu il də ənənəvi olaraq marafonda “Azercell Telekom” MMC-nin rəhbər heyəti ilə yanaşı, şirkətin əməkdaşları və korporativ abunəçiləri də iştirak edəcək. Fəaliyyət dövrü ərzində sağlam həyat tərzini təşviq edən Azercell hər kəsi “Bakı Marafonu”na qatılmağa səsləyir və bütün yarışçılara uğurlar arzu edir!



**Zaur Ustac,**
şair, publisist

### Vallah, kəhrizdən ayıbdı...

Turist kimi gəzmişəm,
Qarış-qarış Yurdumu!
Hələ yada salmıram,
Süründüyüm Ordumu!

Əlimdə qayçı, dəryaz,
Toz-torpaq uda-uda!
İstəyirəm mən dönəm,
Nisgilli, dərdli Yurda!

Gözümüzü açandan,
Eşitdik: “Araz”, “Araz”...
O vaxtlar Qarqar bizə,
Dayaz idi, damdayaz...

İndi keçilməz olub,
Dərindən də dərindi...
Yeganə təsəllimiz,
Bu dərdimiz sərindi...

Bir də ümid çırağı,
Qurumayan o kəhriz...
O vaxtlar düşünərdik,
- “Nə ərköyün bu kəhriz...”-

Kənkanlarla qol-boyun,
Yaşamaqdan zövq alır.
Onlar nazın çəkməsə,
Suyu tez-tez azalır...

İndi bu fikrə görə,
Utanıram özümdən...
Düz otuz il sərasər,
Yaş axıdıb gözündən...

Arınıb zir-zibildən,
Xirtdəyinə çıxsa da...
Axıdıb göz yaşını,
Öz içinə axsa da...

İndi mən o kəhrizin
Yanına turist kimi...
Yaxası zınqırovlu,
Muncuqlu artist kimi...

Necə gedim, a Millət!?
Dilə gəlib deməzmi:
- Hanı sənin külüngün?!-
Göz yaşını yeməzmi?!

Ya evimin divarı,
Qarqarın qara daşı,
Şahbulağın ağ daşı,
Atıb-tutmazmı başı?!

Soruşmazmı, nə vaxtdır,
Hardasan, “İşlərbaşı”!?
Qalmayıb xanəgahın,
Artıq daş üstə daşı...

Hanı malan, şuğulun!?
Ya isgənən, sığırğan!?
Neçə vaxtdır, hardasan!?
- Burda hamı bağrı qan...

Bəlkə də kəhriz kimi,
Arılar da vəfalı...

Kötüklər ta çürüyüb,
Pətək arar səfalı...

Kol-kos basmış arxların
İtib bəndi-bərəsi...
Məni görcək deməzmi,
- Hanı bunun dəhrəsi!?-

İndi mən o kəhrizin
Yanından turist kimi...
Yaxası zınqırovlu,
Muncuqlu artist kimi...

Ötüb keçə bilmərəm,
Bəlkə bir “ajıqıjı”
İllərdi yol gözləyir,
- Harda qaldı bu “Qıjı”!?

Məndən dastan gözləyən,
Mən “Zəfər dastanım”ı
Bax, orda yazacağam,
- Əkəcəm bostanımı...

Hər tutumu çırpanda,
Ya da üzüm dərəndə...
Axtalıq zoğalları
Kölgəliyə sərəndə...

Gözü bıçaqlı əzgil
Batsın sənin gözünə...
Buz quyumdan içməmiş
Söz baxarmı sözümə!?

Ən sonuncu adamsan,
Bu işdən söz açmağa!
Qısqı bərk gələn kimi,
Yer gəzərsən qaçmağa...

Öz işinlə məşğul ol!!!
Qoy, dərdli dərdin çəksin...
Gilas da dəriləcək,
Döz, barı bir ting əksin...

*17.04.2022. - Bakı.*

## GÜNÜN FOTOSU



Şanxayda karantin

# PISA beynəlxalq qiymətləndirmə tədqiqatı

**Asif Cahangirov,**
əməkdar müəllim,
professor

Hər bir fənn səriştələrin, dəyərlərin formalaşmasına və inkişafına xidmət etməlidir.

▸▸ Səh. 4

## STATİSTİKA



■ Rusiya Prezidenti Vladimir Putinin 2021-ci ildəki gəliri 10 milyon 202 min 616 rubl təşkil edib.

■ Bu barədə onun Kremlin saytında dərc olunmuş gəlir, xərc və əmlak bəyannaməsində qeyd olunub. Bildirilib ki, bu, əvvəlki illə müqayisədə 207,9 min rubl çoxdur.

■ Rusiyanın Baş naziri Mixail Mişustin isə 2021-ci ildə 18 milyon 321 min 716 rubl qazanıb.




▸▸ Səh. 7

# Yeniyetmələrin narkotik aludəçiliyi